Bu bir xalq qəzetidi
ƏDALƏT

## XİN cəbhədəki vəziyyətlə bağlı məlumat yayıb



**21 sentyabr 2020-ci il tarixində Ermənistan-Azərbaycan beynəlxalq sərhədinin Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələri növbəti təxribata əl atıb. Düşmən qüvvələrinin atıcı odlu silahdan açdığı atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Məmmədov Elşən Əli oğlu şəhid olub.**

Ermənistan XİN-in bölgədə sülh və regional təhlükəsizliyin təminatından bəhs edən ən son açıqlaması və bu ölkənin Xarici İşlər nazirinin münaqişənin sülh yolu ilə həllinə çağırış edən bəyanatının ardınca bu qanlı təxribatın törədilməsi Ermənistan rəhbərliyinin əsl niyyətinin sülh yox, təcavüzün davam etdirilməsi olduğunun bariz nümayişidir. Düşmən qüvvələrinin Ermənistan-Azərbaycan sərhədində törətdiyi bu qanlı cinayətin bütün məsuliyyətini Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyaraq, dövlətimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidimizə Allah rəhmət eləsin!

## *Aqil Abbas Ağcabədi məktəblərində*



**Milli Məclisin deputatı Aqil Abbas yeni tədris ilinin başlanması ilə əlaqədar Ağcabədi rayonunun Qiyamadını, Kürdlər, Minaxorlu, Şərəfxanlı və Sarcalı kənd orta məktəblərində olub. Şagird və müəllim heyəti ilə görüşən deputat yeni tədris ilinin başlanması münasibəti ilə onları təbrik edib, ölkədə aparılan təhsil siyasəti və bu sahənin daha da formalaşması üçün parlamentdə müzakirəyə çıxarılacağı gözlənilən qanun layihələri barədə fikir mübadiləsi aparıb. Rayonun təhsil sahəsindəki uğur və nailiyyətlərini qeyd edən Aqil Abbas bildirib ki, dövlət tərəfindən hər il təhsilin inkişafı üçün müxtəlif layihələr həyata keçirilir, yeni təhsil ocaqları tikilir, fərqlənən şagird və tələbələr üçün xüsusi təqaüdlər tətbiq olunur.**

Pandemiya şəraiti olmasına baxmayaraq təhsil müəssisələrinin açılmasını yüksək qiymətləndirən deputat hər kəsi COVİD 19 virusundan qorunmaq üçün nəzərdə tutulan qoruyucu tədbirlərə mütləq şəkildə riayət etməyə çağırıb.

Şagird və müəllimlərin təklif və problemlərini dinləyən deputat müraciətlərlə bağlı müvafiq icra strukturlarına müraciət edəcəyini bildirib.

AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ

Cəbhə bölgəsinə gətirilən hərbi texnika və silahlı qüvvələr barədə heç bir informasiya paylaşmayın;

Azərbaycanın hərbi sistemində olan zabitlərin hansı rayona və nə məqsədlə gəlməsini yazmayın;

Azərbaycanın hava qüvvələrinin hansı istiqamətdə uçuş aparmasını paylaşmayın;

Şəhid və yaralılar barədə dəqiq olmayan informasiyanı yaymayın;

Döyüşlər zamanı telefon yaxud digər texnika ilə çəkdiyiniz videoları sosial şəbəkələrə yükləməyin;

Sərhəd bölgəsində olan strateji yerlərdə, texnika yaxud hərbi hissələrin yanında fotolar çəkib paylaşmayın;

## MİLLƏT DEYİLİK EY, ŞOUYUQ BAŞDAN-AYAĞA

**Müdafiə Nazirliyi dəfələrlə xəbərdarlıq edir, xahiş edir, mobil telefonlara göndərir (xüsusilə də cəbhə bölgəsində və sərhədyanı bölgələrdə) ki, hərbi texnika və hərbçilərlə bağlı məlumatları sosial şəbəkələrdə paylaşmayın, saytlarda yerləşdirməyin, yalnız Müdafiə Nazirliyinə istinad edin. Amma kimə deyirsən?**

Dünən Şəmkirdə Ermənistan PUA-sının vurulmasından heç iyirmi dəqiqə keçməmiş sosial şəbəkələr partlayırdı. Bəzi mətbuat orqanları, saytlar da reytinq xatirinə sosial şəbəkələrdə paylanan xəbərləri və videoları paylaşıb.

Ola bilər ki, kimlərsə bunu sevincdən eləyir. Olmaz da, ay qardaş. Heç kim sənin sevincini əlindən almayıb, sevin də nə qədər istəyirsən. Amma day bunu paylaşma dana. Ömründə bir dəfə də sabah torpaqlarımızı işğaldan azad edəcək Müdafiə Nazirliyinə qulaq as.

Müdafiə Nazirliyinə də tövsiyyəmiz odur ki, əlində sayt var, mətbuat var və ən dəqiq məlumatlar var, çalışıb sosial şəbəkələri qabaqlasınlar.

## DƏRDİMİZƏ BAX EY, ŞORTİK




**Gör nə qədər bekarıq ki, şortiki də müzakirə mövzusuna çevirmişik. Şortik gündəm olub. Və baxıram hamı da rəsmi dövlət orqanına şortiklə girmək istəyəni müdafiə edir. Bir vəkil də deyir ki, qanunda belə bir şey yoxdu, o da şortiklini müdafiə edir.**

İndi geyim haqqında da qanun çıxarsınlar? Demək, belə çıxır ki, sabah çimərlik paltarında da imtahana getmək olar. Mənim mentalitet sözündən xoşum gəlmir, sadəcə onu demək istəyirəm ki, ətrafdakılara hörmət etmək lazımdı.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 129 (5789) 22 sentyabr 2020-ci il
Qiyməti 30 qəpik

## İKİ AYAĞI OLMAYAN TİBBİ KOMİSSİYAYA NİYƏ SEVİNƏ-SEVİNƏ GEDİR?!

**Bu günlərdə seçicilərlə görüşərkən maraqlı bir hadisə ilə rastlaşdım. Deməli, bir nəfərin iki ayağı dizdən aşağı yoxdu. Deyir, altı aydan bir məni Tibbi Komissiyaya çağırırlar ki, görsünlər ayaqlarım yenidən bitməyib ki? Mən də sevinə-sevinə gedirəm, fikirləşirəm ki, bəlkə komissiyadan sonra ayaqlarım bitəcək.**

**Xeyli güldüm.**

# Düşmən ağır itkilərə məruz qaldı




**Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində və Ermənistanla dövlət sərhədi istiqamətində vəziyyət düşmən tərəfindən məqsədyönlü şəkildə getdikcə daha da gərginləşdirilir.**

**Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin yaydığı bəyanatda bildirilib.**

**Qeyd olunub ki, son zamanlar Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması hallarının artması, təmas xəttinə yaxın yaşayış məntəqələrimizin, mülki əhalinin və infrastrukturun müntəzəm atəşə tutlması, daha iriçaplı silahlardan istifadə olunması, mövqelərimizə qarşı keçirilən kəşfiyyat-təxribat fəaliyyətləri, o cümlədən pilotsuz uçuş aparatlarının (PUA) geniş tətbiqi cəbhədə vəziyyətin ciddi kəskinləşməsinə səbəb olub. "Bütün hallarda Azərbaycan Ordusunun qoşun növlərinin tətbiqi ilə düşmən təxribatlarının qarşısı alınıb və o, ağır itkilərə məruz qalıb. Belə ki, dünən gecə saatlarında Hava Hücumundan Müdafiə bölmələrimizin fəaliyyəti nəticəsində düşmənin daha bir taktiki PUA-sı məhv edilib", - bəyanatda vurğulanıb.**

## Nazirlikdən erməni bayrağı iddiasına cavab

**Təhsil Nazirliyi dərslikdə erməni bayrağının rənglərinin olması iddiasına münasibət bildirib.**

Nazirliyin açıqlamasında deyilir ki, sosial şəbəkələrdə yayılmış erməni bayrağının rənglərinin əks olunduğu iddia edilən kitabların heç biri dərslik deyil və Təhsil Nazirliyi tərəfindən nəşr edilməyib.

"Təhsil Nazirliyinin məktəblər üçün nəşr etdirdiyi bütün dərsliklərlə www.trims.edu.az saytının "Qrifli dərsliklər" bölməsində tanış olmaq mümkündür.

Təhsil sahəsi və dərsliklər ictimaiyyətin daim maraq dairəsində olduğundan bəzi maraqlı şəxslər vaxtaşırı olaraq belə köhnəlmiş və ya uydurma məlumatları yaymaqla insanlar arasında süni ajiotaj və narazılıq yaratmağa cəhd edirlər. Çünki bir çox insanlar yayılan xəbəri araşdırmadan onu mütləq həqiqət kimi qəbul edirlər.

Təhsil Nazirliyi geniş ictimaiyyətdən dərsliklər barədə yayılan xəbərlərin doğruluğunu www.trims.edu.az saytı vasitəsilə yoxlamağı xahiş edir".

**"Eyni zamanda bildiririk ki, istənilən kitab nəşriyyat məhsulu hesab edilir və onun hazırlanması zamanı mövcud qanunvericiliyə əsasən, nəşr üçün nəzərdə tutulmuş materialların senzurasına yol verilmir. Hər bir hüquqi və ya fiziki şəxs nəşriyyat məhsulunun sifarişçisi ola bilər", - deyə məlumatda qeyd edilir.**

## *Nazirlik: Ali təhsil dövrü staj kimi qəbul edilir*



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarı ilə ali təhsil dövrü artıq staj kimi qəbul edilir. Əvvəlki dövrlərdə bu, yox idi.**

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) əməkdaşı Ayxan Məcidov "Pensiya təyinatı və hesablanma qaydaları"na həsr olunan canlı bağlantıda deyib. Onun sözlərinə görə, bu yenilik vətəndaşların pensiyalarının artımına bir dəstəkdir. A.Məcidov əlavə edib ki, avtomatlaşdırılmış qaydada pensiya təyinatı həyata keçirilən şəxslər onlara təyin edilən pensiyanın məbləğindən narazı qaldıqları halda DSMF-nin yerli şöbələrinə və ya DOST Mərkəzinə müraciət edə bilərlər. Bu halda vətəndaş üçün əsas sənəd əmək kitabçasının surəti olacaq. Vətəndaş əmək kitabçasının surətini təqdim etdiyi halda onun pensiyasının məbləğinə yenidən baxılacaq: "Əgər müraciət edən kişidirsə, onun hərbi xidmətdə olduğu müddət də staj kimi qəbul edilir. Eyni zamanda, vətəndaş diplomu da tədim etməklə ümumi stajını yenidən hesablatdıra bilər".

## *NASA-dan xəbərdarlıq*

**NASA bu il oktyabrın 31-də elmdə nadir hadisələrdən biri hesab olunan mavi aytutulmasının olacağını xəbər verib.**

"Habertürk"ün məlumatına görə, NASA-nın açıqlamalarında hər il 12 ay tutulmasının olduğu, bu il isə 13 ay tutulmasının gözlənildiyi bildirilir. Və bu digərlərindən fərqli olaraq mavi ay tutulmasıdır.

Qeyd olunur ki, hələlik bunun hansı fəsadlara yol açacağı məlum deyil. Lakin dünya tarixində nadir görülən bir hadisə olduğu bəllidir.

## *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## BNA: Bakıda qanunsuz parklanmalara qarşı tədbirlər davam edir



**Bakı Nəqliyyat Agentliyi (BNA) paytaxtda avtomobillərin qanunsuz parklanmasının qarşısını almaq üçün tədbirlərini davam etdirir.**

Bu barədə Adalet.az-a BNA-dan məlumat verilib. Məlumatda bildirilir ki, sürücülərin dayanma-durma və parklanma qaydalarına riayət etməsi ilə bağlı tədbirlər davamlı bir prosesdir: "Bunun üçün bizim xüsusi proqram təminatı olan planşetlə təmin edilən müfəttişlərimiz tərəfindən nəzarət tədbirləri həyata keçirilir. Həmçinin qanunsuz parklanmaya qarşı intellektual nəzarət sisteminin nəzarət kameralarının imkanlarından istifadə olunur".

## ZAUR ƏHMƏDDƏN GÜNÜN STATUSU



**Hamınızdan xahiş edirəm, ya da tələb edirəm...**

**Şəhid övladlarının ağlayan, boynubükük fotolarını paylaşmayın.**

## Şəhid çavuş dəfn edildi



**Sentyabrın 21-də saat 09:20 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədində Tovuz istiqamətində düşmənin növbəti təxribatı nəticəsində şəhid olan Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmətçisi kiçik çavuş Məmmədov Elşən Əli oğlu dəfn edilib.**

**Şəhid Elşən Məmmədov Tovuz şəhər qəbiristanlığında torpağa tapşırılıb.**

**Dəfn mərasimində Müdafiə Nazirliyinin nümayəndələri, Rayon İcra Hakimiyyətinin rəhbərliyi, hərbçi qulluqçular və rayon ictimaiyyəti iştirak edib.**

## ABŞ Azərbaycan və Ermənistanı danışıqlara çağırdı

**ABŞ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə kömək etməyə sadiqdir.**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ dövlət katibi Mayk Pompeonun Ermənistana müstəqillik günü münasibətilə ünvanladığı məktubda deyilir.

"Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə kömək etməyə sadiq qalırıq və tərəfləri Minsk Qrupu həmsədrlərinin himayəsi altında substantiv danışıqları mümkün qədər tez bərpa etməyə çağırırıq", - dövlət katibi qeyd edib.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## "QARABAĞ BİZİMDİR, QARABAĞ AZƏRBAYCANDIR!"



**Möhtərəm Prezidentin Az.TV, "İctimai TV" və "Real" TV-nin əməkdaşlarına verdiyi müsahibə artıq həm ziyalılar, həm siyasətçilər, həm də xalq tərəfindən geniş müzakirə edilməkdədi. Xüsusilə qeyd etmək istərdim ki, bu müsahibə xalqda Azərbaycanın sabahı ilə, gələcəyi ilə, xüsusilə Dağlıq Qarabağ probleminin həlli baxımından xoş ovqat yaratmış və müsahibə böyük ruh yüksəkliyinə səbəb olmuşdu.**

**Məlumdur ki, ölkədə 2018-ci ildən başlayaraq çox böyük iqtisadi və siyasi islahatlar həyata keçirilir. Bu islahatların verdiyi bugünki və gələcək nəticələri müsahibədə geniş yer almışdı. Həm bir ziyalı kimi, həm də bir qarabağlı kimi müsahibədə məni ən çox cəlb edən məsələ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Möhtərəm Prezidentin tutduğu qətiyyətli mövqedir. Hələ ötənlərdə dövlət başçısı bu məsələyə "Qarabağ Azərbaycandır. Nida!" sözləri ilə son nöqtəni qoymuşdu.**

**(Ardı 2-ci səhifədə)**

## GÜNÜN LƏTİFƏSİ

**10-12 il bundan qabaq möhkəm qar yağanda, Bakı kəndlərinin birində rəhmətə gedən olur. Hava dəhşət soyuq, çovğun olduğuna görə molla Yasini oxuya bilmirmiş.**

Qəbirin yaxınlığına bir maşın gətirirlər, deyirlər, otur maşında, oxu. Molla oturub oxuyur, hərdən pəncərəni açıb "Fatihə!" qışqırırmış.

Axırda bir-iki nəfər mollaya yaxınlaşıb deyir ki, molla əmi, sən əziyyət çəkib pəncərəni açma, 2 dənə siqnal ver, özümüz biləcəyik.

# Səbail rayonunda yolların yenidən qurulmasına 1,9 milyon manat ayrılıb



**Prezident İlham Əliyev Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Bakı şəhəri Səbail rayonunun Badamdar qəsəbəsi ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 1,9 milyon (bir milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## *Azərbaycan koronavirusa qarşı vaksinin gətirilməsi ilə bağlı saziş imzalayıb*

**2019-cu ilin sonundan etibarən dünyada sürətlə yayılan SARS-CoV-2 virusuna görə yaranmış pandemiya əksər ölkələrin səhiyyə və iqtisadi sistemlərini böhran vəziyyətinə salıb.**

Pandemiya davam etdiyi müddətdə bir çox sərt karantin tədbirləri və müalicə metodları tətbiq edilsə də, güclü mübarizə sistemləri hələ də hazır deyil. Yoluxucu xəstəliklərə səbəb olan digər viruslardan fərqli olaraq SARS-CoV-2 virusu gec mutasiya olan, lakin yoluxdurucu gücü sürətlə artan virusdur. Bu şəraitdə epidemioloji vəziyyətə nəzarət edə bilmək üçün ən effektiv vasitə həssas əhali qruplarının vaksinasiyasıdır.

Hesablamalar göstərir ki, əhalinin ilkin olaraq 20%-nə peyvəndlərin vurulması epidemioloji vəziyyətə effektiv nəzarət etmək üçün kifayət edə bilər. İstifadə oluna biləcək vaksinlər üzrə vacib tələblərdən biri, vaksinin effektiv və təhlükəsiz olmasıdır. Vaksin virusa qarşı ən azı 50% qoruyuculuq qabiliyyətində malik olmalı və kənar mənfi təsirləri minimum səviyyədə olmalıdır.

Çoxtərəfli platformalarda ölkələrin iştirakı məqsədilə, GAVI, CEPI və ÜST tərəfindən COVAX platforması yaradılıb. COVAX təşkilatı, geniş sayda peyvənd namizədlərini müxtəlif texnologiyalar vasitələrilə qiymətləndirərək təhlükəsiz COVID-19 peyvənd təkliflər portfelini istifadə etmə imkanı yaradan əvəzolunmaz mexanizmə malik sistemdir. COVAX platformasının əsas məqsədi, COVID-19 ilə mübarizədə vaksin istehsalını sürətləndirmək və bütün ölkələr üçün ədalətli və bərabər əlçatanlıq imkanı yaratmaqdır. Hazırda klinik sınaqlar fazasında olan 30 vaksindən cəmi 6-sı 3-cü klinik fazada sınaqlardan keçirilir. Tədqiqatlar davam etdiyindən, vaksinlərin effektivliyi və təhlükəsizliyi haqqında hələ fikir söyləmək mümkün deyil.

Lakin aparıcı vaksin namizədləri artıq çoxsaylı ön sifarişlər qəbul etdiklərindən, bu tələbin həcminin onların istehsal potensialından çox olmasını nəzərə alsaq, növbəti sifarişləri tezliklə tam təmin etmək mümkün olmaya bilər. Bunları nəzərə alaraq, 18 sentyabr 2020-ci il tarixində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI (Global Alliance for Vaccines) təşkilatı arasında saziş imzalanıb. Sazişə görə, ÜST (Ümumdünya Səhiyyə Təşkilatı) tərəfindən təsdiqlənmiş və tələblərə cavab verən peyvənd istehsal olunduqda tez bir zamanda təşkilatın başqa üzv ölkələri ilə bərbər, Azərbaycan da təsdiqlənmiş peyvədlə təmin olunacaqdır.

Azərbaycan Respublikası elmin nailiyyətlərinə və dünya praktikasına əsaslanaraq əhalinin sağlamlığının qorunması istiqamətində ehtiyac olan bütün tədbirləri həyata keçirməyə davam edəcəkdir və bu barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Qeyd edək ki, GAVI təşkilatının əsası 2000-ci ildə qoyulub. Təşkilatın mərkəzi ofisi İsveçrənin Cenevrə şəhərində yerləşir.

## *Dövlət Agentliyi "CISCO" şirkəti ilə əməkdaşlığı genişləndirir*

**Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "CISCO" şirkətinin Azərbaycan üzrə icraçı direktoru Ramil Eyyubov və biznesin inkişafı üzrə meneceri Fərid Zeynalovla görüşüb.**

Agentlikdən Adalet.az-a verilən məlumata görə, Ülvi Mehdiyev "CISCO" şirkəti ilə Dövlət Agentliyi arasındakı əməkdaşlığın uğurlu nəticələrini və gələcək perspektivlərini qeyd edib. Görüşdə mövcud əməkdaşlığın daha da genişləndirilməsi barədə razılıq əldə olunub.

Ülvi Mehdiyev COVID-19 pandemiyası dövründə Dövlət Agentliyinin fəaliyyətinə göstərdikləri xüsusi dəstəyə Ramil Eyyubov və Fərid Zeynalova təşəkkürnamələr təqdim edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "CISCO" şirkəti ilə "Azərbaycanın Rəqəmsallaşdırılmasının Sürətləndirilməsi üzrə CDA proqramı" (Country Digital Acceleration) çərçivəsində əməkdaşlıq edir.

# "ALİ TƏHSİL HAQQINDA" QANUN LAYİHƏSİ HAZIRLANIR

**Dünən Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib. Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.**



Komitənin sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə" sənədin müzakirəsi daxil edilib.

Qanun layihəsinə təklif olunan dəyişiklikləri ətraflı şərh edən Bəxtiyar Əliyev qeyd edib ki, sənəd "Publik hüquqi şəxslər haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2019-cu il 12 iyul tarixli qanunun icrası ilə əlaqədar hazırlanıb. Sözügedən qanunun 4-cü maddəsinə uyğun olaraq publik hüquqi şəxs, dövlət adından, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən yaradılır.

Publik hüquqi şəxs "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunla müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxsin dövlət qeydiyyatı onun idarəetmə orqanlarının üzvləri tam tərkibdə təyin edilmədiyi halda da həyata keçirilir. Buna əsaslanaraq "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunun 5.4 və 8.1-ci maddələrihəmin müddəalara uyğunlaşdırılır. Müzakirəyə çıxarılan "Peşə təhsili haqqında" qanunun 16.2-ci maddəsi isə "Təhsil haqqında" qanunun 32.2-ci maddəsinə uyğunlaşdırılır.

Komitə üzvləri Musa Qasımlı, Rafael Hüseynov, Etibar Əliyev, Müşfiq Məmmədli, Kamilə Əliyeva, Şahin Seyidzadə, Ceyhun Məmmədov sənədlə bağlı qeyd və təkliflərini bildiriblər.

Sənədin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi məqsəduyğun hesab edilib.

**Sonra onlayn toplantıda komitənin cari işləri ilə bağlı fikir mübadiləsi aparılıb. "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması ilə bağlı yaradılmış işçi qrupun tərkibinə dəyişiklik müzakirə olunub və təsdiq edilib. Bəxtiyar Əliyev qanun layihəsi ilə bağlı oktyabr ayının əvvəlləri üçün geniş ictimai dinləmələrin keçirilməsinin planlaşdırıldığını diqqətə çatdırıb.**

**Nicat Novruzoğlu**

# GƏNCLƏR VƏ İDMAN KOMİTƏSİNİN FƏALİYYƏTİ MƏQBUL SAYILIB

**Dünən Milli Məclisin Gənclər və idman komitəsinin iclası keçirilib. Milli Məclis Sədrinin müavini, komitə sədri Adil Əliyev bildirib ki, 2020-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə komitənin 6 onlayn iclası keçirilib. Komitədə 2 qanun layihəsi üç oxunuşda müzakirə olunaraq plenar iclasa tövsiyə edilib və Milli Məclis tərəfindən qəbul olunub. Bu sənədlər bir sıra məcəllələrə və qanunlara dəyişikliklərin edilməsi ilə bağlı olub.**

Sessiyalar ərzində komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan ümumilikdə 207 məktub və sənədlər daxil olub. Sessiya müddətində 1597 nəfərin sosial şəbəkələr üzərindən elektron müraciəti qeydə alınıb, 1548 məsələ artıq öz həllini tapıb. Daxil olan 204 şifahi müraciətin 146-sı həll olunub. Vətəndaşların müraciətlərində məşğulluq, məişət, sağlamlıqla bağlı problemlər, abadlıq işləri, maddi yardım, bank kreditləri,gənclər və idman sahəsinə aid məsələlər yer alıb.

Komitə sədri məlumat verib ki, onun tərəfindən cari ilin ilk 6 ayı ərzində fərdi olaraq 660 vətəndaş qəbul edilib. Vətəndaşların qaldırdığı məsələlərin bir çoxu öz müsbət həllini tapıb.



Sonra komitənin 2020-ci il payız sessiyası üçün iş planı təqdim edilib. Qeyd olunub ki, sessiya zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci ilin "Könüllülər ili" elan olunması ilə bağlı sərəncamına uyğun olaraq gənclər sektorunda maarifləndirməisinin təşkili, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə"Dövlət proqramına əsasən normativ hüquqi aktların gənclərlə bağlı müddəalarının təhlili,bir sıra qanunların, o cümlədən"Könüllü fəaliyyəti haqqında" qanuna dəyişiklik barədə,"Xeyriyyəçilik fəaliyyəti haqqında"və digər qanunların müzakirəsi, Gənclər gününə həsr olunmuş ictimai dinləmənin keçirilməsi nəzərdə tutulub.

Payız sessiyasında, həmçinin,"Deputat könüllüləri" layihəsinin icrası, Parlament könüllülərinin yaradılması istiqamətində tədbirlər, habelə şəhid ailələri, müharibə veteranları, Azərbaycan Gənc Müəllimlər Asossasiyasının üzvləri, əsgərlər və idmançılarla bir sıra görüşlər planlaşdırılır. Komitə üzvləri, eyni zamanda, işğal altında olan ərazilərimizdə vəziyyətin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində aktiv fəaliyyət göstərəcəklər.

Könüllülər barədə məlumat verən komitə sədri qeyd etdi ki, millət vəkillərinin yerlərdə könüllülərinin olması, hər bir deputatın ən az 3-5 könüllünü seçməsi çox müsbət hal olardı. Ümumilikdə, 125 deputatın bir yerdə mindən artıq könüllüsünün olması, onların da dövlətin, dövlətçiliyin inkişafında, möhkəmləndirilməsində fəaliyyətə cəlb olunması çox vacibdir.

Sonra Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, deputatlar Etibar Əliyev, Vüqar İskəndərov, Cavid Osmanov, Ülvi Quliyev, Şahin Seyidzadə, Sevinc Hüseynova və Müşfiq Cəfərov iclasda çıxış edərək, hesabat və iş planı barədə, bir sıra digər məsələlərlə bağlı öz fikirlərini bölüşüblər.

**İclasda komitənin 2020-ci il yaz və növbədənkənar sessiyalarında fəaliyyəti məqbul sayılıb, payız sessiyanın iş planı təsdiqlənib.**

**Nicat Novruzoğlu**

# "Müharibədən başqa yol qalmayacaq"



**Dövlət başçısı jurnalistlərə verdiyi son müsahibəsində də Qarabağ münaqişəsinə toxunub. O, Ermənistan tərəfinin danışıqlar prosesini pozduğunu, cəbhə boyu təxribatlara yol verdiyini bildirib. Bununla da Ermənistan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkçün müharibədən başqa yol qoymur.**

Məsələyə münasibətini bildirən siyasi şərhçi Tural İsmailov da münaqişənin həll yolu üçün müharibədən başqa yol qalmayacağını söyləyib.

"Ölkə prezidenti İlham Əliyev dəfələrlə Dağlıq Qarabağ ətrafındankı vəziyyətin Azərbaycanın ərazi bütöylüyü çərçivəsində həll edilməli olduğunu bildirib. Dünya liderləri, aparıcı ölkələr də bu fikirləri təsdiqləyib. Beynəlxalq siyasi, aparıcı qurumlar da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Münaqişənin həll olunma yolu isə yalnız bundan, dövlət sərhədlərinin bərpasından keçir. BMT-nin qəbul etdiyi 4 qətnamə, digər beynəlxalq siyasi təşkilatların açıqladığı sənədlər, verdiyi bəyanatlar Azərbaycanın ərazi bütövlüyünün bərpasını əsas şərt kimi irəli sürür. Amma təəsüflər olsun ki, uzun illərdir ATƏT-in Misk qrupu hər hansı ciddi danışıqlar apara bilmir.

Bütün bunların fonunda Ermənistan tərəfi danışıqlar prosesindən qaçır, sülh danışıqlarını pozur, Azərbaycan torpaqlarını işağl altında saxlayır. Həmçinin, cəbhənin müxtəlif yerlərində atəşkəsi pozur, təxribata yol verir. Belə bir rejimlə danışıqlar artıq effekt vermir. Gördüyünüz kimi son dövrlər səfərbərliklə bağlı müxtəlif fikirlər səsləndirilir, ehtiyatda olan zabitlər təlimə çağrılır. Türkiyə-Azərbaycan hərbi ittifaqı, təlimləri bunların fonunda baş verir. Ermənistan rəhbərliyi təxribatlardan əl çəkməsə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün müharibədən başqa yolu qalmayacaq."

**Emin Piri**

# Avropa Şurasına paket hazırlamaq təklif olundu



**Litva, Polşa və Rumıniya Avropa İttifaqını Belarusa dıstək paketi hazırlamağa çağırıb. Bu barədə məlumat verən Litvanın prezidenti Qitanas Nayseda twitter səhfəsində bildirib ki, "Litva, Polşa və Rumıniya Belarus xalqının azadlıq, insan haqları və demokratiya mövqeyini qətiyyətlə dəstəkləyir:" Biz Avropa İttifaqını gələcək demokratik Belarus xalqının siyasi, iqyisadi və sosial tranformasiyasını təmin etmək üçün müvafiq paket hazırlamağa səsləyirik".**

**Belarusda müxalif qüvvələrin etiraz aksiyaları, bu ilin avqust ayının 9-dan, ölkədə keçirilən və Aleksandr Likaşenkpnun qalib elan olunduğu gündən başlayıb.**

**Müxalifət hesab edir ki, seçkilərdə Svetlana Tixonovsakaya qalib gəlib. Lakin 26 ildir, hakimiyyətdə olan Lukaşenko seçkiləri saxtalaşdıraraq yenidən hakimiyyətdə olmaq istəyir. Bu günlərədək ölkənin müxtəlif şəhərlərində davam edən etiraz aksiyalarında artıq minlərlə mitinq iştirakçısının həbs olundiğunu və onlara işgəncələr verilldiyini iddia edən müxalifət qüvvələri sonadək mübarizə aparmaq niyyətlərini ortaya qoyublar.**

**Rüstəm Hacıyev**

# Azərbaycanda kəskin bağırsaq infeksiyaları və suçiçəyinə yoluxma halları artıb

**Son 14 ildə ölkədə ümumi kəskin bağırsaq infeksiyaları və suçiçəyinə yoluxma halları xeyli artıb.**

2005-ci ildə Azərbaycanda 10 520 ümumi kəskin bağırsaq infeksiyalarına, 5 162 suçiçəyinə yoluxma halı baş verib.

Ötən il isə Azərbaycanda qrip və yuxarı tənəffüs yollarının kəskin infeksiyasına yoluxma ilə bağlı 337 140 halı qeydə alınıb. Onların 13 504-də ümumi kəskin bağırsaq infeksiyaları aşkarlanıb. Keçən il suçiçəyinə yoluxma hallarının sayı 14 514-ə yüksəlib.

2019-cu il ərzində ölkə üzrə 359 nəfərdə viruslu hepatitlərə, 359 nəfərdə salmonelyoz infeksiyalarına, 343 nəfərdə qoturluğa, 34 nəfərdə qarayaraya, 551 nəfərdə bruselyoza, 189 nəfərdə skarlatinə yoluxma qeydə alınıb.

*Aqil ABBAS*

# "QARABAĞ BİZİMDİR, QARABAĞ AZƏRBAYCANDIR!"

**(əvvəli 1-ci səhifədə)**

**Prezident müsahibəsində deyir: "Danışıqlar faktiki olaraq getmir. Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. O demək deyil ki, biz danışıqlardan imtina edirik, ancaq o deməkdir ki, biz Ermənistanın özünə görə bic siyasətinə qoşulmaq istəmirik. Bu görüntü naminə aparılan danışıqlarda iştirakımız o görüntünün mahiyyətinə uyğun olacaqdır. Faktiki olaraq Ermənistan rəhbəri danışıqlar prosesini pozub. Pozur yox, pozub. Çünki onların cəfəng bəyanatları, təxribat xarakterli addımları danışıqları mənasız edib".**

**Bəli, Ermənistanın əsas məqsədi danışıqları uzatmaqla, pozmaqla və Möhtərəm Prezidentimizin dediyi kimi, cəfəng bəyanatlarıyla həm beynəlxalq ictimaiyyəti aldadır, həm də indiki status kvonu saxlamaq istəyir. Və növbəti təxribatlarından biri də Livandan erməni ailələrini Dağlıq Qarabağa köçürməsidir. Və həm də bunları çəkib televiziya vasitəsilə bü-**



**tün dünyaya yaymasıdır. Bu da bütün beynəlxalq konvensiyaya ziddi. Çox təəssüf ki, beynəlxalq ictimaiyyət də bu məsələyə göz yumur. Qoy göz yumsunlar. Azərbaycan o yumulu gözləri açmağa qadirdir və açacaq. Və onda ermənilər üçün çox pis olacaq, beynəlxalq ictimaiyyətin də utanan üzü varsa...**

**Məlumdur ki, Ermənistanın təxribatlarından biri də Dağlıq Qarabağı danışıqlara soxmaqdı. Təbii ki, Azərbaycan da heç vaxt separatçılarla və terrorçularla hər hansı bir danışıqlara girməz. Dünyada heç bir özünə hörmət edən dövlət separatçılarla və terrorçularla danışıqlara getmir. Bu məsələdə də Möhtərəm Prezident öz qəti mövqeyini ortaya qoyub.**

**Ermənistan baş nazirinin Azərbaycanın qarşısında yeddi şərt qoyması ilə bağlı dövlət başçısı deyib: "Birincisi, sən kimsən ki, bizimlə şərtlə danışırsan. Əgər biz onunla şərt dili ilə danışmaq istəsək, onun siyasi ömrü çox çəkməyəcək. Mən demişəm ki, biz bu cəfəng şərtləri rədd edirik. Amma bizim bir şərtimiz var, onlar bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdırlar, necə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində bu öz əksini tapır".**

**Möhtərəm Prezident müsahibəsində məlum Tovuz döyüşlərinə də toxunub. Və bildirib ki, həm Tovuzda, həm də Naxçıvanda aparılan uğurlu əməliyyatlar Ermənistana bir dərs oldu. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciəti də cavabsız qaldı. Və hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı bir bəyanat da vermədi, sadəcə şərh verdi və onların səyləri puça çıxdı.**

**Jurnalistlər Türkiyə və Azərbaycan hərbçilərinin birgə təlimləri ilə bağlı məsələyə də toxunublar. Prezident İlham Əliyev jurnalistlərə cavabında deyib: "İlk növbədə, mənim əziz qardaşım Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha təşəkkürümü bildirmək istəyirəm. Tovuz hadisələrindən sonra onun birmənalı, açıq və kəskin açıqlamaları bizi çox məmnun etdi, Azərbaycan xalqını sevindirdi. Bir daha göstərdi ki, Türkiyə hər zaman Azərbaycanın yanındadı. Bu, növbəti Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının təzahürü idi".**

**Və daha sonra əlavə edir ki, "biz də hər zaman Türkiyənin yanındayıq və bütün məsələlərdə, - bunu artıq Türkiyədə də bilirlər. Azərbaycanda da bilirlər, dünyada da bilirlər, - Türkiyənin yanında olacağıq, bir yerdə olacağıq. Bizim birliyimiz böyük sərvətimizdir".**

**Və onu da qeyd edir ki, bu təlimlər müntəzəm olaraq keçirilir, həm Azərbaycanda, həm də Türkiyədə. Eyni zamanda Naxçıvanda da təlimlər keçirilir. Və təbii ki, bu da Ermənistanı bərk qorxuya salır: "Beləliklə, bu təlimlərə qayıdarkən bir daha demək istəyirəm ki, təlimlər keçirilir və nə qədər lazımdır keçiriləcək. Bu təlimlər bizə lazımdır, Türkiyəyə lazımdır, regional sabitliyə lazımdır. Çünki Ermənistan regional sabitlik üçün təhdiddir".**

**Prezident İlham Əliyev müsahibəsini bu fikirlərlə yekunlaşdırır: "Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik . Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

**Yazımın əvvəlində dediyim kimi, Möhtərəm Prezidentin çıxışı xalq tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb. Bir ziyalı kimi və qarabağlıları Milli Məclisdə təmsil edən millət vəkillərindən biri kimi qarabağlılar adından onu demək istərdim ki, Qarabağ camaatı Ulu Öndər Heydər Əliyevin ilk dəfə rəsmi dövlət bayrağı kimi Naxçıvanda qaldırdığı o müqəddəs bayrağımızı Prezident İlham Əliyevin bir gün Şuşaya sancacağına Günəşə, Aya inandıqları kimi inanırlar. Və Möhtərəm Prezidentin yanındadırlar və Qarabağın azadlığı uğrunda başlanacaq savaşda da ön cərgədə olacaqlar.**

**Tanrı Azərbaycanımızı qorusun!**

**Tanrı Prezidentimizi qorusun!**

# DOKTORDAN DÖVLƏT BAXÇALIYA SƏRT CAVAB



**Milliyyətçi Hərəkat Partiyasının başqanı Dövlət Baxçalı pandemiya ilə mübarizə aparan həkimləri son çıxışlarının birində kəskin aşağılamışdı. Düzdür, İYİ Partiyasının başqanı Maral Akşenər Dövlət bəyə lazımi cavab vermişdi. Amma qarşıma İzmirdən doktor Hüsref Çetinin ünvanladığı bir şeir çıxdı. Çox maraqlı şeirdi, daha doğrusu, cavabdı.**

Bizdə də bəzən COVİD-19-la mübarizə aparan həkimlərə xoşagəlməyən ifadələr işlədilir. Amma bilirsiniz ki, nə qədər həkim bu xəstəliklə mübarizədə özü virusa yoluxub həyatını itirib və nə qədər də həkim hazırda bu virusa tutulub. COVİD-19-la mübarizə aparan həkimlər öz ailələrindən və övladlarından da ayrı düşüblər, amma peşə borclarını layiqincə yerinə yetirirlər.

Gördüm ki, Doktor Çetinin şeirlə toxunduğu məsələ bizim üçün də aktualdı və belə qərara gəldim ki, dərc edim. Amma elə türkcə. Bəzən türkcədən bizim türkcəyə şeiri çevirəndə şeir öz gözəlliyini itirir. Hətta Nazim Hikmətin elə şeirləri var ki, azərbaycanca variantı istənilən kimi alınmır.



***Dr.Hüsrev Çetin:***

## siz

*Siz hiç, bir insanın içini gördünüz mü?*
*Canlıyken, kalbi atarken!*
*Damarlarında kanı dolaşırken!*
*Bir de, içinde bir dert aradınız mı?*
*Ben aradım!*
*Siz kanser olduğunu bir insanın,*
*Daha kendi bilmeden.*
*En yakını, en çok seveni duymadan!*
*Teşhisini koyup ağladınız mı?*
*Ben ağladım.*
*Siz hiç, kanayan yaraya el bastınız mı?*
*Düşünmeden bir şey bulaşır mı diye!*
*Açık yaraya dibinden baktınız mı?*
*Gözünüze sıçrayan kandan, hepatit kaptınız mı?*
*Ben kaptım,*
*Siz hiç bir tümör gördünüz mü?*
*Dokuz yaşında bir çocuğun kafasının içinde,*
*Görünce anlayıp yakın olan ölümünü,*
*Ve bunu annesine nasıl söyleyeceğinizi düşündünüz mü?*
*Ben düşündüm.*
*Siz hiç başınız sağolsun dediniz mi?*
*Hastayı ne halde getirdiklerini unutup!*
*Kapıda umutla bekleyen kalabalığa.*
*Bir babaya, bir anaya, bir evlada!*
*Ben dedim.*
*Siz hiç bir gece vakti, kalkıp sıcak yatağınızdan,*
*Polisle, jandarmayla uzun yol gidip,*
*Kör bir bir ışıkla vadiden indiniz mi?*
*Üstelik, bile bile az sonra görülecek manzarayı.*
*Ben indim.*
*Yetmez gibi gecenin sersemliği,*
*Ters dönmüş araçtan, cesetler çıkarıp,*
*Niye ölmüş diye soran savcıya*
*Bir sebep söylediniz mi hiç!*
*Ben söyledim.*
*Siz uyurken sabaha karşı,*
*Çalan bir telefonla uyanıp,*
*Ya yetişemezsem diye, gaza basıp,*
*Apar topar ameliyata girdiniz mi?*
*Ben girdim.*
*Siz bir akşam misafir ağırlarken,*
*Ya da, güzel bir yemekteyken,*
*Belki de en sevdiğiniz dizi oynarken,*
*Koşa koşa hastaneye gittiniz mi, tanımadığınız biri için?*
*Ben gittim.*
*Ben daha neler yaşadım,*
*İnsana, insanlığa, yaşama dair.*
*Ne gerekiyorsa yapınla başlayan,*
*Terketmeler, vefasızlıklar gördüm.*
*Siz gördünüz mü?*
*Siz hiç bir salgında,*
*Bulaşmasın diye evine kaçarken herkes,*
*Ateşli, halsiz, deva bekleyen birini,*
*Yatırıp yanınıza, tedavi ettiniz mi?*
*Ben ettim,*
*Ve sırf bu yüzden,*
*Herkes korkarken hasta olmaktan,*
*Siz hasta oldunuz mu?*
*Bırakın hastalığı, öldünüz mü?*
*Ben öldüm!*
*Normal bir insansanız eğer,*
*Herkes kalan giden,sayılara bakarken,*
*Bir can için, kendini feda eden kardeşlerinizi,*
*Görürken ölüme meydan okuyan meslektaşlarınızı!*
*Ses vermez miydiniz?*
*Ben veriyorum.*
*Artık, Kimse demesin bana!*
*Otur oturduğun yerde!*
*Bir de birlik olmuşsunuz,*
*Çok ses veriyorsunuz, susturamıyoruz böyle!*
*Ve, sakın demeyin bana!*
*Senin sesin çok çıkıyor, bırak canları!*
*Benim iktidarım gidiyor burda!*
*Kapatılsın hemen, tabip odaları.*
*Ben seçmişim zaten yolumu, gerekirse ölürüm.*
*Benim derdim, kendim değil diyorum.*
*Her bir İnsan hayatı değerli; bilin istiyorum.*
*Hiç bir can, önlem alınmadığı için gitsin istemiyorum.*

**18.09.2020 İzmir**

# Bəziləri heç qız belə sevməmişdi...



*Zaur Əhməd*

**Ölkədə müharibə əhval ruhiyyəsi var. Hər ortamda bu gün-sabah müharibənin başlayacağı söhbəti gedir.**

Mən uzun illərdir beynimdə bu düşüncələri çəkçevir edirəm, amma indi çox adam danışır.

Bu gün səhər oyananda oğlum Ərhun yatmışdı. Bütün uşaqlar kimi onun da üzündəki məsumluq diqqətimi cəkdi. İnsanın içini tərpədir.

Bir anlıq düşüncəyə qərq oldum. Müharibə başlasa, bu məsum uşaqlar necə olacaq? Mən savaşa getdim, şəhid oldum, bu uşaq nələr yaşayacaq? Mənim çəkdiyim əziyyətləri odamı çəkəcək? Bəlkə də daha ağır olacaq?

Düşüncələrdən ayılan kimi özümü qınamağa başladım. Heç sənə yaraşdımı, belə fikirləşmək? Şəhid Əhmədin oğlu gör nələr düşünür? Özüm özümlə dalaşmağa başladım. Nə isə...

Hər çətin anımda, önəmli qərar verməli olduğumda Şəhidlər Xiyabanına gedirəm. Ağsaqqalım, böyüyüm, qibləgahım Atamı ziyarət edirəm. Özüm özümlə dalaşa-dalaşa getdim. Atam və şəhid yoldaşlarını ziyarət etdim. Məzarların önündən keçib getdikcə sanki hamısı düz gözümün içinə baxırdılar. Elə bilirdim ki, bu gün səhər oğlumun üzünə baxıb ürəyimdən keçirdiyim sözləri eşidiblər. Odur ki, baxa bilmirdim gözlərinə.



Necə baxasan? Axı onlar ailə-uşaq demədən, Vətən uğrunda savaşa getmişdilər. Çoxu heç ailə də qurmamışdı, nə evlənmək, bəlkə də bəziləri heç qız belə sevməmişdi, sevgili əlindən tutmamışdı, heç məktub da yazmamışdı. Atam kimilər də uşaqlarının böyüdüyünü görmədi, toyunu eləmədi, qucağına nəvə almadı...

İndi bu kişilərin hüzurunda ailə-uşaq fikirləşməyin yeridimi? Əsla...

Heç kim boğazdan yuxarı danışmasın. Övlad insanın ürəyinin dərinliyindəki ən kövrək yerdir, hər şeyi onlara rəğmən edirsən. Hər addımında onları düşünürsən.

Amma...

Bu savaş əvvəl-axır olacaq, olmalıdır. Ya biz bu savaşı bitirəcəyik, ya da övladlarımız. Ya biz şəhid, qazi olacağıq, ya övladlarımız. Hansı asandır? Cavab bəlli...

Bu gün bir daha sıra ilə düzülən şəhid məzarları önündə anladım və əmin oldum ki, qisas haqqı övlad haqqından daha öndədir. Mən övladımın başını sığallamaq üçün Vətənsiz qalmağı həzm edə bilmirəm. Mən qisas alınmadan məzarlarından boylanan şəhid ruhlarının gözünə dik baxa bilmirəm.

**Mən bir vətəndaş, bir əsgər, bir fərd olaraq, düşünürəm, amma Dövlət nə düşünür, onu da bilmirəm. Dövlət Baba bu günə, sabah hazırdırsa, biz gedəndən sonra əmanətimizə sahib çıxa biləcəksə, biz hazırıq. Öncə öldürməyə, məqamı gələndə ölməyə də hazırıq...**

# "Marsda da başımızı qatacaqlar"



*Eminquey*

**Bu Əmrika filmləri məndə həmməşə ikrah hissi oyadıb da, neyləyim?!**

**Bunlar dünyaya ağalıq eləyir deyə "Əmrika" deyirəm ha, yozmayın.**

Uydurublar bir yaddünyalı fəlsəfəsi, illərdir filmlərində dünyaya yaddünyalılar düşür, könlünə kim yatdı götürüb aparır. Bir də görürsən, lap bir əcaib varlıq düşür dünyaya, başlayır adamları yeməyə. Bizim bu Əmrika da dünyaya hakimdi axı? Heylə şey olarmı ki, bir dılğır yaddünyalının əlində girinc qalsın?

Eşit, inanma!

Bizim bu Əmrika gözəlim xilaskar ordususunu yığır başına, əmr verir ki, bəs, əzin o yaddünyalıların əyri-üyrü başını, oyun uzun gözlərini.

Guyammış dünyada xilas olunası adam qalmayıb, ölkə qalmayıb. Bu soxhasoxda yaddünyalı qədeşlər də bir yandan. Amma adamın üstündə uçan boşqab var, gərək haqqına girməyəsən. Bizim bu Əmrika qərdeş özünə dəqiq bir imic seçib:

Ənkə dövlətlərin dünyayla problemləri bitib!

Bəli!

Onlar daha yerlə əlləşmirlər.

Day nə olasıdı ki? Vurublar ölkələri bir-birinə. Qoy bu ölkələr bir-birilə qırışmağında olsun, biz də göylə əlləşək. Aya adam göndərək, Marsda həyat axtaraq. Armstronq 1969-a ayaq basalı Amerika özünə çoxdan torpaq da seçib Ayda. Bayraqlarını sancıblar oralara. Onlar ruslarla yarışa girməli idilər, başqa yolu yox idi. Bu iki ənkə dövlət raketlərinə sarıyıblar hamını.

Bizsə hələ də Üzeyir, Damla, Şəbnəm kimi mövzulara takılıb qalmışıq.

Şərqdə ilk akademik musiqinin təməlini qoyan bir xalqın əlbət ki, bu bayağı sevdası, damlası, üzeyiri adamı incidir. Sizi əmin edirəm ki, Qarabağ da peyğəmbərin hədisləri kimi getdikcə yeni nəsillərə o qədər səhih gəlməyəcək. Çünki ailə institutunda Qarabağ sevgisi aşılanmır. Bircə onu bilirlər ki, hə, belə itkimiz var, vəssalam! Sistem belə qurulub. Bizim kimi qulaq deşiyi boyda ölkələr də, hələ də seriallarda iki sevən cütlüyü necə ayırmaq olar mövzusunda qan eləyən rejissorlar yetişdiririk. Ayrıldığı sevgilisini ömür boyu "neprav" çıxaran şairlər doğuruq. Əvəzində bizim şairlər göylə əlləşirlər.

**Əminəm, bir gün Marsa qədəm qoysaq, orda da torpağımızı işğal edən tapılacaq. Marsda da başımızı qatacaqlar. Şəhidlərimizlə şərəfləndirəcəyik Marsı. Vəssalam! Bu Əmrikayla Uruslar orda da bizə imkan verməyəcək...**

# Mətbuat Şurası müraciət yayıb

**Mətbuat Şurası müraciət yayıb.**

Şuradan Adalet.az-a verilən məlumata görə, müraciətdə deyilir:

"Kütləvi informasiya vasitələrimiz Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttindəki durumla bağlı məsələlərə böyük diqqət yetirirlər. Ümumən jurnalistlərimiz Dağlıq Qarabağ münaqişəsinə, onunla əlaqədar istənilən prosesə, yeniliyə, atəşkəsin pozulması hallarına və digər məqamlara maraq göstərirlər. Bu, onların təbiətindən irəli gələn xüsusiyyətdir. Media cəmiyyətin güzgüsüdür, cəmiyyət isə Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızın 20 faizinin işğalına münasibətdə barışmazdır. Mövzunun həssaslığını şərtləndirən də budur. Ancaq təəssüflə bildirməliyik ki, bəzi media orqanlarının cəmiyyətin həssas yanaşdığı taleyüklü məsələyə münasibəti heç də həmişə adekvat olmur. Qeyri-peşəkarlıq hallarını müşahidə edirik. Sosial şəbəkələrdə yayılmış və Ermənistan silahlı qüvvələrinin bölmələrinə məxsus taktiki pilotsuz uçuş aparatının Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən vurulduğunu əks etdirdiyi bildirilən video görüntülərin ayrı-ayrı informasiya saytlarında yer alması da bu baxımdan xüsusi diqqət yetirilməli məsələdir.



Haqqında söz açdığımız görüntülər Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən dövriyyəyə buraxılmamış müəyyən sosial şəbəkə istifadəçilərinin bu kimi çəkilişləri yayması isə hələ o demək deyil ki, görüntülər Ermənistana məxsus pilotsuz uçuş aparatının vurulduğu anın təsviridir. Belə hallarda dəfələrlə bildirmişik və yenə də vurğulayırıq ki, əldə edilmiş bilgilərin Müdafiə Nazirliyi ilə dəqiqləşdirilməsi zəruridir. Bu, peşəkarlıq tələbidir. Media orqanı və jurnalist üçün sosial şəbəkədə yayılmış materialın dürüst mənbə ola bilmə mütləqliyi yoxdur.

Azərbaycan Mətbuat Şurası bir daha ölkə jurnalistlərinə müraciət edərək onları bu sayaq durumlara münasibətdə peşəkarlığı qorumağa, emosiyalara qapılmamağa, mənbənin dəqiqliyinə ciddi önəm verməyə, rəsmi qurumlara istinad etməyə çağırır.

Unutmaq olmaz ki, müasir dövr üçün müharibənin informasiya cəbhəsi anlayışı aktualdır və bu cəbhədə ən xırda detal belə müstəsna əhəmiyyətə malikdir. Media orqanlarımızın, jurnalistlərimizin, cəmiyyətə informasiya verməyə məsul hər bir şəxsin məsələni nəzərə alması isə həm qanunlarımızın tələbidir, həm də böyük mənəvi məsuliyyətdir".

# Daha 14 şəhid ailəsi və Qarabağ müharibəsi əlili evlə təmin olundu

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naftalanda 6, Ağstafa rayonunda 6, Lerik rayonunda isə 2 yeni inşa etdirilmiş fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, Naftalanda keçirilən evlərin təqdim edilməsi tədbirində nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədr müavini Pərviz Səfərov, Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini Arzu Məmmədov və digərləri iştirak edib.



Tədbirdə Prezident İlham Əliyevin həssas əhali qruplarına xüsusi qayğısından bəhs edilib.

Bildirilib ki, sosial müdafiə proqramlarından biri olan şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı proqramı ildən-ilə genişləndirilir. Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626, ötən il 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi işləri aparılır.

Bu gün Naftalan şəhərində, Ağstafa və Lerik rayonlarında təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 598 mənzil və fərdi ev (o cümlədən 554 mənzil, 44 fərdi ev) verilib.

Qalan evlər də ilin sonunadək veriləcək.

Qeyd olunub ki, ümumilikdə ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8186 mənzil və fərdi ev təqdim edilib.

**Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların rifahına göstərilən yüksək qayğıya, bu gün isə yeni fərdi yaşayış evləri ilə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.**

Adil Əliyev

# Platonun heç sinif otağı da yox idi



*Vaxtilə qədim yunan filosofu Platon Akademos bağında gəzə-gəzə tələbələrinə dərs deyirdi. Və bir gün bu gəzintili dərslər akademiya adını aldı. Təmtəraqdan, görsənişdən tamamilə uzaq, olduqca təvazökar bir şəraitdə yaranan və fəaliyyət göstərən akademiyalar daha sonra Avropanın İntibah dövründə yenidən gündəmə gəldi. Qitənin ən yenilikçi aydınları bir araya toplanaraq elmi müzakirələrlə ölkələrini daha aydın sabahlara apardılar.*

*İstər antik dövrün ən böyük ziyalısı, alimi olan Platon, istərsə də Avropa İntibahının əsasını qoyan böyük aydınlar bilsəydilər ki, XXI əsrdə Azərbaycan Milli Elmlər Akademiyası adlı bir qurum dövlət yetkililəri ilə görüşdə yalnız maşınlarının köhnəliyindən danışıb yeni avtomobillər almaq istəyəcəklər, ərsəyə gətirdikləri akademiyalarının adından bu cür istifadə edilməsindən xeyli xəcalət çəkərdilər. Çünki insanlıq tarixinə böyük töhfələr verən bu dühalar heç bir zaman şəxsi nəqliyyat vasitələrinin olması barədə düşünməyiblər. Onlar beyinlərini yalnız və yalnız elmin inkişafına sərf edib, böyük çətinliklə əldə etdikləri vəsaitləri elmi-texniki avadanlıqların alınmasına xərcləyiblər. Və həqiqətən də böyük elmi tərəqqilərə imza atıblar.*

*XXI əsrin ilk çeyrəyində isə AMEA-na hər il on milyonlarla vəsait ayrılır, yüzlərlə akademik, minlərlə professor adını daşıyan insanlar bu elm ocağında fəaliyyət göstərirlər, ortaya isə ciddi heç bir ixtira qoyulmur. AMEA rəsmiləri dövlət yetkililəri ilə görüşlərində 165 nəqliyyat vasitəsinin olduğundan bəhs edir və onların mütləq əksəriyyətinin köhnəliyindən şikayətlənirlər. Dolayısıyla dövlətdən daha komfort həyatla təmin olunmaq imkanı tələb edirlər. Başqa sözlə desək, dərdləri-sərləri elmi tərəqqiyə imza atmaq yox, yeni maşınlarda gəzməkdir.*

*Bir daha xatırlatmaq istərdim ki, akademiyanın ilk qurucusu Platonun heç tələbələriylə bir araya gəlmək üçün sinif otağı da yox idi. Məcburən Akademos bağında gəzə-gəzə dünyanın qaranlıq üfüqünü işıqlandırırdılar. Bizim AMEA isə istifadə müddəti bitmiş köhnə nomenklatura məmurlarının ölkəni qaranlıq çağlara qaytarmaq üçün apardıqları müzakirələrin mərkəzinə çevrilib.*

## *Türkiyə öz ordusundan istifadə edə bilər - AB təşvişdə*



**Türkiyəyə qarşı sanksiya məsələsi çox qarışıq mövzudur.**

Bunu AB-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrellin müşaviri Danila Şvarçer deyib. "Almaniya məsələnin həlli üçün vasitəçiliyini artırsa da, Fransa kimi ölkələr Yunanıstanı dəstəkləyir. Ancaq dialoq mühiti yaratmaq üçün bunu balanslı şəkildə etmək lazımdır. Türkiyənin bölgədəki təsirini artırmaq üçün ordusundan istifadə etmə ehtimalını da nəzərə almalıyıq. Buna baxmayaraq, Türkiyə AB-nin qaçqın planının tərəfdaşıdır və avropalılar üçün açar rolunu oynayır", - müşavir bildirib.

## *Avropalı diplomat gizli məlumatları Çinə satdı*



**Avropa Birliyi (AB) - Asiya Mərkəzi düşüncə mərkəzinə rəhbərlik edən keçmiş ingilis diplomat Freyzer Kameronla bağlı ortaya iddia atılıb.**

Mİ6-da işləyən ingilis diplomat özünü Brüsseldə jurnalist kimi təqdim etdikləri iddia edilən iki Çin agentinə AB ilə bağlı məlumatları verməkdə şübhəli bilinir. Adının çəkilməsini istəməyən siyasətçi Kameronun Pekinə çox yaxın olduğunu bildirib. Belçika təhlükəsizlik xidmətləri tərəfindən sabiq diplomatın Çinin Dövlət Təhlükəsizlik Nazirliyi və Çin ordusunda çalışdığı deyilən çinli jurnalistlərlə əlaqəsi olması ittihamıyla istintaq başladılıb. Kameron isə Çindən aldığı yeganə vəsaitin Çin-Avropa əlaqələrini inkişaf etdirmək üçün bu ölkənin Avropa Birliyinə verdiyi kiçik illik qrant olduğunu bildirib. Ona qarşı sürülən ittihamların əsassız olduğunu vurğulayır.

## *Ruhani: ABŞ bunu bacarmadı*




**ABŞ BMT Təhlükəsizlik Şurasının İrana qarşı sanksiya tətbiqini bərpa edə bilmədi.**

Bunu İran Prezidenti Həsən Ruhani deyib. "ABŞ təhdidkar siyasətindən əl çəkməsə, layiqli cavabını alacaq", - Ruhani bildirib. Onun sözlərinə görə, ABŞ rəsmiləri 2,5 ildir ki, İrana qarşı beynəlxalq koalisiya qurmağa və BMT Təhlükəsizlik Şurasının sanksiyalarını bərpa etməyə çalışıblar, amma bu cəhdləri nəticəsiz qalıb.

## *Tixanoskaya: Lukaşenko hörmətini itirib, Putin bilir...*

**Belarus prezidentliyinə keçmiş namizəd Svetlana Tixanovskaya RBK-ya müsahibəsində Rusiya Prezidenti Vladimir Putini "müdrik idarəçi" adlandırıb.**

Xanım siyasətçi Putin və Lukaşenkonu münasibətlərini şərh edib. "O, (Lukaşenko) 9 avqustdan sonrakı hərəkətləri ilə hətta mövcud olan kiçik hörmətini də itirdi. Putin bir müdrik lider kimi bütün bunları görür", - deyə siyasətçi bildirib.

Tixanovskaya, həmçinin deyib ki, Lukaşenkonun Belarus müxalifəti, yaxud Polşa-Litva ilə bağlı sözlərini Putin bir insanın fantaziyaları kimi qəbul edir: "İstənilən halda Putin müdrik rəhbərdir".

**MEHRİBAN**



*Ruslan Babayev*
*Maliyyə bazarları üzrə ekspert, iqtisad elmləri üzrə fəlsəfə doktoru*

# Qiymətli kağızlar bazarı yenidən canlanır

## Bazarın yeni iştirakçıları hansı perspektivlər vəd edir?

**Ölkə iqtisadiyyatlarının inkişafını şərtləndirən vacib elementlərdən biri iqtisadi subyektlərin maliyyə resurslarına çıxışının asanlaşdırılması və resursların diversifikasiya edilməklə istifadəsində səmərəliyin artırılmasıdır. Bu baxımdan, kapital resurslarının iqtisadiyyatın müxtəlif sahələrində effektiv istifadəsi iqtisadi artımı şərtləndirən əsas amillərdəndir və bu resurlasların əldə edilməsində qiymətli kağızlar bazarının rolu danılmazdır.**

Dünya səviyyəsində maliyyə bazarlarının tərkib hissəsi olan qiymətli kağızlar bazarının həcmi gün keçdikcə artmaqdadır. Hazırda bu bazarlarda ticarət olunan qiymətli kağızların həcmi trilyonlarla ABŞ dolları həcmindədir. Sadəcə ABŞ-ın səhm bazarının ümumi dəyəri 30 trilyon ABŞ dolları, istiqraz bazarının ümumi dəyəri isə 40 trilyon ABŞ dolları həcmindədir. Sual oluna bilər ki, investorları və emitentləri (istiqraz buraxan tərəf) bu bazarlara cəlb edən əsas amillər hansılardır?

Bu növ bazarların investorlar üçün əsas üstünlüklərindən biri likvid bazarlar olmasıdır. Yəni, investisiya etdiyiniz kapital hər hansı əmlaka deyil qiymətli kağıza yatırılır və investor pula ehtiyac duyduqda qiymətli kağızı ən qısa zamanda birjada sata bilir. Bundan əlavə, qiymətli kağız fiziki olaraq amortizasiya olunmur, eyni zamanda onun saxlanması əlavə xərc tələb etmir. Digər tərəfdən, əlinizdə olan qiymətli kağızı təminat kimi bankdan kredit götürdükdə istifadə edə bilirsiz.

Qiymətli kağız buraxılışının şirkətlərə verdiyi ümumi üstünlüklər isə şirkətlərin ölkə, regional və ya dünya maliyyə bazarlarında tanınması, həmçinin maliyyələşmə imkanlarını genişlətməklə fəaliyyətlərinin səmərəliyini artırmaqdır.

Qiymətli kağızlar bazarının inkişafında 3-cü tərəf kimi dövlətin rolunu qeyd etmək vacibdir. Dövlət maliyyə bazarlarını inkişaf etdirməklə şəffaflığın və qeyri-neft sektorunun artımına, habelə sahibkarlıq fəaliyyətinin inkişafına münbit şərait yaradır. Bu mənada dünya praktikasında ilkin kütləvi istiqraz təklif edən şirkətlərə dövlət tərəfindən müəyyən güzəştlər tətbiq olunur.

Ölkəmizdə həyata keçirilən davamlı və dayanıqlı iqtisadi siyasətin təzahürü kimi kapital bazarlarının əhəmiyyətli rolunu göstərmək olar. Belə ki, dövlətin həyata keçirdiyi maliyyə siyasətinin tərkib hissəsi olan qiymətli kağızlar bazarının inkişafı maliyyə alətlərinin müxtəlifliyini və maliyyə bazarlarının dərinliyini təmin etməklə qeyri-neft sektorunun əhatəsini genişləndirir.

Hazırda dövlət və qeyri-dövlət sektorunda fəaliyyət göstərən şirkətlərin qiymətli kağızlar bazarına olan marağı gün keçdikcə artır. Məsələn, səhmləri dövlətə məxsus "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin istiqraz qiymətli kağızlarının ilkin kütləvi təklif üsulu ilə yerləşdirilməsi buna bariz nümunədir.

Qiymətli metalların hasilatı sahəsində qeyri-neft sənayesinin liderlərindən biri olan "AzerGold"un təklif edəcəyi istiqrazlar şirkətin maliyyə mənbələrinin şaxələndirilməsinə və resursların yeni layihələrin icrasına yönəldilməsinə, ölkənin qiymətli kağızlar bazarının inkişafına, eləcə də vətəndaşlara mənfəətli və etibarlı investisiya imkanları yaratmağa xidmət edəcək. Bu da öz növbəsində koronavirus pandemiyasının dünya iqtisadiyyatına mənfi təsirləri fonunda az riskli, yüksək gəlirli qazanc əldə etmək fürsəti verəcək. Üstəlik, vətəndaşların - fiziki və hüquqi şəxslərin "AzerGold" istiqrazları ilə milli iqtisadiyyat və dağ-mədən sənayesinin tərəqqisinə töhfə vermək kimi bir şansı yaranacaq.

İstər institusional (banklar, sığorta şirkətləri, investisiya şirkətləri), istərsə də fərdi investorlar (fiziki şəxslər) ilkin kütləvi təklif olunan bazardan "AzerGold" istiqrazlarını almaqla illik 4% gəlir əldə edəcəklər. İstiqrazların nominal dəyərinin 100 ABŞ dolları, müddətinin 3 illik, həcminin isə 20,000,000 ABŞ dolları olması gözlənilir. İstiqrazların satışı Bakı Fond Birjasında hərrac vasitəsilə həyata keçiriləcək. İnvestorlara faizlərin ödənilməsi il ərzində 4 dəfə olmaqla rüblük nəzərdə tutulur. Sadalanan şərtlər hazırda ölkənin maliyyə bazarı üçün ən əlverişli təkliflərdən hesab olunur.

**"AzerGold" QSC-nin istiqrazlarını əldə etməklə investorlar sabit gəlir əldə etmək, müddət sonunda istiqrazların nominal dəyərini geri almaq hüququ əldə edirlər. Qeyd olunan istiqrazları əldə etməklə investorların bankların ABŞ dolları üzrə depozitlərinin orta faiz dərəcəsindən daha artıq gəlir əldə etmək imkanı vardır. Bununla yanaşı, Cəmiyyətin fəaliyyətinin nəticələrinin yüksək mənfəətliliklə müşayət olunması emissiya edilən istiqrazların daha etibarlı və dayanıqlı olmasına əsas verir.**

# MOTOSİKLETLƏR, MOPEDLƏR VƏ VELOSİPEDLƏR ÖLÜM SAÇIR

**İndi bir çox insanlar motosikletlərdən, mopedlərdən və velosipedlərdən geniş istifadə etməyə başlayıb. Başqa sözlə demiş olsaq, bu nəqliyyat vasitələri ucuz olduğu üçün insanlar onlara daha böyük maraq göstərirlər. Və bir də adını çəkdiyimiz bu nəqliyyatları idarə edərkən sürücülər bir o qədər də çətinliklə üzləşmirlər. Amma onların da sürülməsinin müəyyən çətinlikləri və problemləri var. Ən azından ona görə ki, bu cür nəqliyyat vasitələri qoruyucu hissələri möhkəm olmadığına görə daha çox təhlükəlidir.**



### *Çox təəssüf ki,*

bu təhlükəni onun sükanı arxasında olan sürücülərin əksəriyyəti hiss eləmirlər. Çünki onlar düşünürlər ki, bu nəqliyyat vasitələri balaca olduğuna görə, şəhərin istənilən yerində onu idarə etmək bir o qədər çətin olmayacaq. Ancaq hadisələr çox vaxt onların düşündüklərinin əksinə cərəyan eləyir.

***Xüsusən də Bakı şəhərində hərəkətin sıx olduğu küçə və prospektlərdə motosikletlərin, mopedlərin və velosipedlərin idarə edilməsi bir çox halda ölüm təhlükəsi saçır. Belə ki, bir çox şirkətlərin və ticarət mərkəzlərinin kuryerləri hər hansı tapşırığı qısa zaman kəsiyində yerinə yetirmək üçün həmin nəqliyyat vasitələrini hərəkətin sıx olduğu yerlərdə idarə edərkən yol hərəkəti qaydalarına məhəl qoymur, hər hansı yeməyi çatdırmaq və tapşırılan işi tez icra etmək üçün nəqliyyat vasitələrinin arası ilə soldan, sağdan manevr edir, qarşıdakı və arxadakı avtomobillərə diqqət yetirmir və bir çox halda belə anlarda qəzalar qaçılmaz olur.***

Özü də təcrübəsi olmayanlar və sürücülük kursu keçib vəsiqə əldə etməyənlər belə qəza şəraitlərini Bakı şəhərində tez-tez yaradırlar. Hətta bir çox sürücülər onları görəndə çox ehtiyatla davranır və çalışırlar ki, təhlükə ilə üzləşməsinlər. İmkan daxilində çalışırlar ki, bu təhlükədən xilas olmaq üçün gah sağdan, gah soldan hərəkət edən motosikletlərin, mopedlərin və velosipedlərin sürücülərinə yol versinlər. Bu, bir çox halda mövcud təhlükənin və qəzanın qarşısını almağa şərait yaradır. Təəssüflə qeyd etməliyik ki, ölüm saçan bu cür nəqliyyat vasitələrinin sürücüləri çox vaxt nə özlərinin, nə də digər sürücülərin həyatı haqqında dərindən düşünmürlər. Hər hansı bir sifarişi alan kimi küçəyə çıxır, avtomobil sıxlığına məhəl qoymur və ilan kimi o maşının, bu maşının arasından keçərək mənzil başına tez çatmaq istəyirlər. Hətta biz dəfələrlə səkidə yüksək sürətlə hərəkət edən və piyadaların həyatı üçün təhlükə törədən bu cür motosiklet, moped və velosiped sürücülərinin şahidi olmuşuq. Bir çox halda piyadalar onlara narazılıqlarını və iradlarını bildirsələr də, amma bundan o sürücülər qətiyyən nəticə çıxarmayıb, yoluna davam edirlər. Və bu günün özündə də Bakı şəhərində səkidə hərəkət edən piyadaları qorxu içində saxlayan belə sürücülər az deyil.

### *Heç onların çoxunun*

sürücülük vəsiqəsi də yoxdur. Sadəcə olaraq, özəl iaşə müəssisələri, restoranlar və kafelər onları işə götürərək kuryer xidməti həyata keçirir. Və bu kuryer xidməti də təbii ki, qanun çərçivəsində gerçəkləşdirilməlidir. Başqa sözlə demiş olsaq, həmin nəqliyyat vasitələrinin sükanı arxasında əyləşən sürücülər sürücülük vəsiqəsi əldə etməli, təcrübə toplamalı və eyni zamanda məsuliyyət hiss eləməlidirlər. Əfsuslar olsun ki, böyük əksəriyyət bu deyilən qanunlara əməl etmir, bacardı-bacarmadı, motosikletin, mopedin və velosipedin sükanı arxasında əyləşərək kuryer xidməti göstərir. Bu isə bayaq dediyimiz kimi, bəzi hallarda ölümlə nəticələnir.

***Aldığımız məlumata görə, son vaxtlar Bakı şəhərində bu nəqliyyat vasitələrinin digər avtomobillərlə toqquşması nəticəsində bir neçə motosiklet, moped sürücüsü dünyasını dəyişib. Təbii ki, yol-nəqliyyat hadisələri baş verərkən qəzanın yaranma səbəbləri təhqiqat, araşdırma və istintaq zamanı bütün detalları ilə aydınlaşdırılır.***

Aparılan araşdırmalar da onu göstərir ki, bu nəqliyyat növlərinin iştirakı ilə baş verən qəzalar elə çox vaxt həmin sürücülərin öz səhlənkarlığı, laqeydliyi üzündən yaranır.

Üstəlik də, onların bu cür məsuliyyətsiz addımları digər nəqliyyat vasitələrinin sürücüləri üçün də təhlükə törədir.

### *Hələ biz səkilərdə necə gəldi idarə olunan*

belə nəqliyyat vasitələrinin piyadaların həyatı üçün böyük təhlükə törətdiyini demirik. Bunu da desək, onda görün motosikletləri, mopedləri və velosipedləri idarə edən insanlar başqaları üçün nə qədər böyük təhlükə mənbəyidir.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədov bizim ölüm saçan bu nəqliyyat vasitələri ilə bağlı suallarımızı cavablandırarkən bildirdi ki, çox yaxşı bir mövzuya toxunmusunuz. Həqiqətən də bu gün Bakı şəhərində motosikletlərin, mopedlərin və velosipedlərin idarə olunmasında bir təhlükə mövcuddur. Və həmin təhlükəni aradan qaldırmaq üçün

### *Son vaxtlar*

yol hərəkəti qaydasını pozan 30-a yaxın bu cür sürücü barəsində əməkdaşlarımız tərəfindən qanuna müvafiq olaraq inzibati protokol tərtib edilib. Onu da qeyd edim ki, bir neçə motosikl, moped və velosiped sürücüsü yol-nəqliyyat hadisəsi zamanı dünyasını dəyişib. Həmin nəqliyyat vasitələrinin iştirakı ilə baş verən qəzalar və ölüm hadisələri bizi çox narahat edir. Ona görə də rəhbərlik bu məsələləri diqqət mərkəzində saxlayır, qəzaların qarşısının alınması üçün yol polisi əməkdaşlarına həmin nəqliyyat vasitələrinin sürücüləri ilə daha ciddi mübarizə aparmağı və işləməyi tövsiyə edir.

Vaqif Əsədov bir fikri də xüsusilə vurğuladı ki, yol polisi digər nəqliyyat növləri kimi həmin nəqliyyatların da "Yol hərəkəti haqqında" Qanuna ciddi riayət etməsini diqqət mərkəzində saxlayır və bundan sonra da diqqət mərkəzində saxlayacaq. Və həmin sürücülər də birmənalı olaraq anlamalıdırlar ki, qanun hamı üçündür; istər avtomobil olsun, istərsə də motosiklet, moped və velosipedlər! Ona görə də bir daha o sürücülərə tövsiyə edirik ki, yola çıxarkən diqqətli olsunlar, hərəkətin sıx olduğu yerlərdə tez-tez manevr edərək sola və sağa hərəkət etməsinlər.



Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi mütəmadi olaraq qabaqlayıcı tədbirlər həyata keçirir, o sürücülərlə maarifləndirici söhbətlər aparır, onların daha ehtiyatlı olmağını tövsiyə edir. Düzdür, bizim bu apardığımız profilaktik tədbirlər öz müsbət nəticəsini göstərir. Amma buna baxmayaraq, yol hərəkəti qaydasını pozaraq qanunlara əməl etməyən o cür nəqliyyat vasitələrinin sürücüləri də daha çoxdur.

Polis polkovniki Vaqif Əsədov fikrini davam etdirərək bildirdi ki, kuryer xidmətini icra edən motosiklet, moped və velosiped sürücüləri hamısı birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməyə borcludurlar.

Əgər kimsə yola çıxırsa, nəqliyyat vasitələrinin növündən asılı olmayaraq, digər hərəkət iştirakçıları üçün təhlükə törətməməli və qaydalara əməl etməlidir.

**Göründüyü kimi, motosiklet, moped və velosiped sürücüləri bundan sonra da diqqətli olmalı, kuryer xidmətini yerinə yetirərkən yol hərəkəti qaydalarına əməl etməli, təhlükəli gedişləri ilə digər nəqliyyat vasitələrini idarə edən insanların həyatı üçün ölüm saçan hərəkətlərə yol verməməlidirlər. Öncə isə öz həyatlarını, ailələrini və övladlarını düşünməlidirlər. Hər hansı kuryer xidmətini bir anın içində gerçəkləşdirmək üçün kimsə həyatının tükdən asılı vəziyyətə salmamalıdır.**

**Faiq QİSMƏTOĞLU**

# "Professora qarşı kobud davranış pis təəssürat yaradır"

## Qulu Məhərrəmli də etiraz etdi

**Bu gün professor Nəsir Əhmədlinin sosial şəbəkədə BDU-ya buraxılmaması ilə bağlı yazdığı status geniş müzakirəyə səbəb olub. Belə ki, müəllim-tələbə heyəti bu addımı pisləyib və professorun BDU-ya buraxılmamasını qınayıblar.**

Məsələ ilə bağlı professor Qulu Məhərrəmli də fikir bildirib:

"Professor Nəsir Əhmədliyə qarşı belə kobud davranış çox pis təəssürat yaradır. Əgər belə qayda var idisə, bütün fakültələr və həmin yaş qrupuna aid əməkdaşlar əvvəlcədən xəbərdar olunmalıydı".

Qeyd edək ki, Nəsir Əhmədli "facebook" hesabında bu cümlələri yazmışdı: "2 gün əvvəl kafedradakı kömpüterimdən onlayn dərs keçmək üçün BDU-ya getdim. Adətim üzrə salam verib keçmək istəyəndə mühafizəçi şəxsiyyət vəsiqəmi göstərməyi xahiş etdi. Göstərdim. Təəssüflə başını yelləyib dedi:

- Professor, bağışlayın, Sizi universitetin ərazisinə buraxa bilmərəm.

- Niyə ki?



- Yaşınız 65-dən çoxdur.

Çox təsirləndim. 55 ildən bəri tələbə kimi, laborant kimi, müəllim kimi, baş müəllim kimi, dosent kimi, professor kimi, demək olar, hər gün fəxrlə gedib-gəldiyim müqəddəs bir ünvana məni buraxmadılar. Hələ də özümə gələ bilmirəm.

Horas Makkoyun "Yorulmuş atları güllələyirlər..." romanı yadıma düşdü".

**Rövşən Tahir**

# DSMF: Bundan sonra kişilərin pensiya yaşı artırılmayacaq



**Azərbaycanda bundan sonra kişilərin pensiya yaşının artırılması nəzərdə tutulmur.**

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) əməkdaşı Ayxan Məcidov "Pensiya təyinatı və hesablanma qaydaları"na həsr olunan canlı bağlantıda deyib. Onun sözlərinə görə, hazırda yaşa görə əmək pensiyasının təyin edilməsi üçün kişilər üçün yaş həddi 65, qadınlar üçün 62 yaşdır:

"Kişilər üçün 65 yaş artıq pensiyaya çıxmaq üçün müəyyən edilən sonuncu yaş həddidir. Bundan sonra kişilərin pensiya yaşı ilə bağlı artım olmayacaq. Artıq 65 yaşı olan kişilər davamlı olaraq, pensiyaya çıxma imkanı əldə edə biləcəklər. Qadınlar üçün isə 62 yaş 30 iyun 2021-ci il tarixinə kimi qüvvədə qalacaq. Ondan sonra isə pensiya üçün yaş həddi 6 ay artırılacaq".

A.Məcidov qeyd edib ki, son 2 ildə pensiya sahəsində ciddi islahatlar aparılıb, pensiyaçıların pensiyaya çıxma imkanlarının mülayimləşdirilməsi prosesi baş verib.

Fond rəsmisi deyib ki, 2019-cu il 1 yanvar tarixindən pensiya yaşına çatan şəXslərin 25 illik stajının tanınması əksər insanların pensiyaya çıxma imkanlarını artırdı:

"1 yanvar 2006-cı İL tarixdən 1 iyul 2018-ci il tarixədək şəxsin minimum staja malik olması əsas şərtlərdən idi. Şəxsin 1 ay belə stajı var idisə, onun 2006-cı il tarixədək stajı tanındı. 25 il də pensiyaya çıxmaq üçün tələb olunan norma olduğu üçün minlərlə vətəndaş pensiyaya çıxmaq imkanı əldə etdi".

## *Çinə Rusiyadan idxal olunan məhsulda koronavirus aşkarlandı*

**Çinin şimal-şərqindəki Çançun şəhərində Rusiyadan idxal olunmuş kalmar qablaşdırmasında koronavirus aşkar edilib.**




**Qida şirkətlərindən birində keçirilən yoxlama zamanı qablaşdırmalardan birində virus tapılıb. Növbəti gün keçirilən təkrar test müsbət nəticə verib. Həmin məhsulun Rusiyadan idxal olunduğu müəyyən edilib.**

**Nəticədə anbarda olan bütün məhsullar yoxlamadan keçirilib. Testlərin mənfi nəticələndiyi bildirilir.**

**Şəhər sakinlərinə dondurulmuş məhsullar alarkən ehtiyatlı olmaq tövsiyə edilib.**

**MEHRİBAN**

# Hansı planetdə nə qədər hündürlüyə tullanmaq olar?

**Ayaqlarımızı yerə basmağımızın səbəbi cazibə qüvvəsidir. İnsan yerdən maksimum 0,5 m hündürlüyə tullana bilir. Bəs, yaxşı, başqa planetlərdə yaşasaydıq nə qədər hündürlüyə tullana bilərik?**

Günəşə ən yaxın planet Merkuridə cazibə qüvvəsi Yerdəkindən iki dəfə daha azdır. Buna görə də Merkuridə yaşasaydıq, maksimum 1,2 m hündürlüyə tullana bilərdik. Amma istiliyə tab gətirə bilsək. Planetin Günəş düşən hissəsinin temperaturu 427 dərəcədir. Gecələr isə temperatur -138 dərəcəyə qədər düşür. Merkuridə 1 gün Yerin 176 gününə bərabərdir. İndi bu temperaturda yaşaya bilməyini xəyal edin. Mümkün deyil.

Veneranın səmasını bağlayan daimi bulud kütləsi olmasaydı, oradan Yeri rahatlıqla görə bilərdik. Venerada tullanmaq istəsək, sadəcə, 0,6 m hündürlüyə qədər tullana bilərdik. Çünki Venerayla Yerin kütləsi təxminən eynidir. Venera Yerdən biraz daha kiçikdir. Planetin temperaturu isə çox istidir.

Ayın digər bir adı isə Lunadır. Buradakı cazibə qüvvəsi dünyamızdakından 1/5 qədər azdır. Buna görə də Ayda tullanmaq istəsəniz 2,7 m hündürlüyə qədər qalxa və bir neçə saniyə havada qala bilərsiniz.

Marsda 1,2 m yüksəkliyə tullana bilərsiniz. Marsən atmosferi Yerin atmosferindən nazikdir. Əgər burda yaşaya biləsydik, masmavi



Gün batışını izləyə bilərdik. Marsın ən hündür dağı Olimpus Yerin ən hündür dağı Everestdən təxminən 3 qat daha hündürdür və eyni zamanda bir yanar dağdır.

***Fobos - Marsın iki peykindən biridir. Burada cazibə qüvvəsi o qədər zəifdir ki, hətta tullanmağınız belə məsləhət deyil. Çünki tullandığınız yerə qayıtmaya bilərsiniz. Fobos asteroid boydadır. Onun Marsla arasındakı məsafəsi Ayla Yerin arasındakı məsafədən qat-qat artıqdır. Fobosun Marsa dəyib parçalanma ehtimalı var. Ki, bu Marsın da ətrafında Saturnda olduğu kimi ətrafında halqaların yaranacığa gətirib çıxara bilər.***

Seres Günəş sistemindəki ən böyük asteroiddir. Hətta o qədər böyükdür ki, cırtdan planetlər siyahısına da düşüb. Təxminən Marla Yupiterin ortasında yerləşir. Burada tullansaq 16 m hündürlüyə qalxıb yavaş-yavaş aşağı düşərik.

Yupiter qaz kütlələrindən ibarət olduğu üçün burada tullanmaq ümumiyyətlə mümkün deyil. Əgər cəhd etsəniz, maksimum 0,2 m hündürlüyə tullana bilərsiniz.

Saturn Günəş sisteminin ikinci ən böyük qaz kütləsinə malik planetidir. Saturnun içinə 9 Yer kürəsi sığışa bilər. Əgər tullanmağa əlverişli səthi olsaydı, burada 0,4 m yüksəkliyə tullana bilərdik.

**Saturnun 64 peykinin ən böyüyü Titanda 3,3 m hündürlüyə tullana bilərsiniz. Saturnun səthi demək olar ki, buzlarla örtülüdür. Bu buzların altı isə qayalıqdır. Buradakı vulkanlar odlu lava yerinə buz püskürürlər. Uran tamamilə buzdan ibarətdir. Onun digər planetlərdən fərqi həm də atmosferinin böyük qisminin buzdan ibarət olmasıdır. Burada tullanmaq istəsək, 0,6 m hündürlüyə qalxa bilərik. Planetin temperaturu -227 dərəcədir. Durduğunuz yerdə dona bilərsiniz.**

Neptun Uranın əkiz qardaşıdır. Neptunda 0,4 m hündürlüyə tullana bilərsiniz. Burada 1 il təxminən 365 dünya ili qədər davam edir. Günəşə bizim yaxınlığımızdan 30 qat daha uzaqdır.

Riton Neptunun peykidir və kainatda yeganə peykdir ki, tərsinə dönür. Yəni Neptunun döndüyü istiqamətin əksinə. Burada tullanmaq mümkün olsaydı, 5,8 m hündürlüyə qalxa bilərdik.

**Pluton qaranlıq və yalnızdır. Əvvəllər planet olaraq qəbul olunsa da, sonralar cırtdan planet kimi qəbul olundu. Burada tullanmaq istəsəniz, 7,6 m hündürlüyə çata bilərsiniz. Pluton Aydan və digər planetlərin peykindən daha kiçikdir. Atmosferi zaman-zaman ortaya çıxır və qeyb olur. Pluton Günəşə yaxınlaşan zaman səthindəki buzlar buxarlanıb atmosfer yaradır.**

**Eminquey**

# Qarabağsız "Qarabağ" şikəstəsi oxumayaq

**Uzun müddətdir ki, yazacağım mövzu mənə rahatlıq, dinclik vermir. Evdə oturanda da, şəhərə çıxıb dolananda da, avtobusa minəndə də, lap axşam yerimə girib yatanda da fikirimdən, yadımdan çıxmır. Səbirlə bilgisayarı qoy qabağına yaz deyir. Mənsə yazını haradan başlayıb, harada qurtaracağımı dəqiqləşdirib qəti bir qərara gələ bilmirəm, elə tərəddüd edirəm. Bunun da səbəbi var: istəyirəm yazım maraqlı və oxunaqlı olsun. Ən əsası isə ürəyimi boşalda bilim. Ona görə də kitab dolabındakı kitabları nəzərdən keçirməyə başladım. Yazacağım mövzu ilə bağlı tanınmışlardan birinin deyimini daxil etmək istəyirdim ki, yazıma qol-qanad versin.**




Qarşıma çıxan ilk kitab keçən əsrdə nəşir olunmuş müdrik və məşhur filosof olan Asif Əfəndiyevin (Asif Atanın) ”Müdriklik səlahiyyəti” kitabı oldu. Kitabın ”Qəm və üsyan” bölümünü yenidən oxudum. Muğam və onun hikməti haqqında dediyi fəlsəfi fikirlər məni heyrətə gətirdi. Mən sevinclə yazımı ətə-qana gətirəcək onun bir fikirini yazıma daxil etdim: ”Muğam fəlsəfəsinin əsas məqsədlərindən biri özünüdərk etmə çox parlaq şəkildə təzahür edir. Muğam insanı özündən ayrıldıqda belə özünə qaytarır. Musiqinin təsirilə biz özümüzdən ayrılmaqla özümüzün ali mövcudluğumuza yüksəlirik”. Nə qədər dahiyanə deyilmiş qiymətli bir fikirdir. Bundan sonra yazımı yazmağa başladım.

Televiziya qarşısında əyləşmişəm. Canlı yayıma baxıram. Məşhur konsert salonu... iynə atsan yerə düşməz. Kimlər yoxdu bu konsertdə: şagirdlər, tələbələr, müxtəlif peşə sahibləri, şairlər, yazıçılar, dövlət məmurları... Gənc xanəndə ”Qarabağ şikəstəsi” oxuyur. Kimliyindən asılı olmayaraq zaldakıların hamsı segah qəminin zirvəsindədir, bu qəm ürəklərdən axıb selə dönür və gözlərdən yanaqlara axır, ordan da zala tökülür. Kişilər böyürlərində oturmuş xanımlardan çəkinmədən dəsmal çıxarıb gözlərindən tökülən yaşı silirlər.

Bu səhnə bir kişi kimi mənim heysiyyatıma toxundu, qəzəblənib kükrədim. Kişilərin, özü də hansı kişilərin? Babək, Koroğlu nəvələrinin, istəsək lap günü bu gün, İRƏVANI da alarıq deyən kişilərin, ağlayıb göz yaşı tökməsinə etiraz edib qəzəblə bağırdım, özü də ucadan bağırdım: bəsdir, bəsdirin dedim, illərdir konsert salonlarında, televiziya ekranlarında, rado dalğalarında ”Qarabağ şikəstəsi” dinləyə- dinləyə Qarabağ itkisinə göz yaşı töküb ağlayırsınız. Nə olar, bir az da ”Mənsuriyyə”ni, ”Qatar”ı dinləyin, bəlkə qəzəbiniz, nifrətiniz, hiddətiniz arta, məğrurluğunuz, yenilməyiniz, igidliyiniz, mərdliyiniz, qəhrəmanlığınız yenidən qayıda. Əzəli və əbədi düşmənimiz olan ermənilərə kimliyimizi, nəyə qadir olduğumuzu göstərəsiniz.

Üsyan qəmin zirvəsi olduğu kimi, həm də sonudur. Üsyan edib qəmə son qoyun! Qoyun, gözlərində yurd nisgili, od- ocaq həsrəti olan, cöhrələrindən dərd, kədər yağışı yağan, vətəndə vətənsiz kimi dolanan qaçqınlar yeni salınmış qəsəbələrdə, şəhərciklərdə yox, illərdən bəri baharı, qışı onlarsız yola salan Füzulidə, Ağdamda, Xankəndində, Xocalıda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında... qarşılasınlar. Bu gün o yerlərdə daş da, torpaq da insansızlıqdan sızlayır, inləyir. Xarı bülbül boynunu büküd doğmalarını, əzizlərini gözləyir. Doğmaları isə bu gün arın- arxayın TV- lərin ekranı qarşısında oturub ”Qarabağ şikəstəsi” dinləyirlər, əllərində araq qədəhi, dillərində torpaqların qaytarılması şərəfinə kəlməsi. Amma əslində bizlər Qarabağın torpağına, daşına, əsil vətən daşına çevrəlməkdənsə, Qarabağsız azərbaycanlıya çevrilməkdəyik. Yetər, Qarabağsız azərbaycanlıya çevrilməyimiz, gəlin günü bu gündən 10 milyonluq xalq olaraq bir nəfər kimi qarabağlı azərbaycanlıya çevrilək.

Məlumdur ki, bizim həyatımızı yaşamayanlar bizim dərdimizin nə olduğunu bilməz. Biz qayğılarımızı, problemlərimizi, ağrılarımızı, torpaq dərdimizi duymayanları şəxsi maraqlarını hər şeydən üstün tutanlardan ayırmağı bacarmalıyıq. Və eyni zamanda quldarla qulun fərqini bilməliyik. Çünki özünü quldar kimi aparanlar və görənlər çoxdur. Bizim şəhid dərdimiz, ümid nisgilimiz, torpaq həsrətimiz var. Bütün bunları dayanmadan, fasiləsiz olaraq insanlara çatdırmalıyıq. Bu gün qarşı tərəf istədiyi, bacardığı formada dünyanın beynini yalanları, böhtanları, iftiraları ilə elə doldurub ki, bizim haqq səsimiz o beyinlərə çatmır.

Bunun üçün də biz haqq savaşına atılmalıyıq, daxildə və xaricdə iradəsi, gücü, bacarığı olanlar bu savaşa qoşulmalıdırlar.

Savaş, mübarizə olmasa, Qarabağ məsələsi BMT, ATƏT və neçə- neçə adı olub, amma fəaliyyəti olmayan, xristian təssübkeşli beynəlxalq təşkilatlar tərəfindən çözülməyəcək.

**Ey bu Vətənin daşı olmaq istəyənlər, nə qədər ki, Qarabağı geri almamışıq, ”Qarabağ şikəstəsi”ni gəlin nə oxuyaq, nə də dinləyək. Torpağımız- Anamızı düşməndən AZAD edək, ondan sonra ”Qarabağ şikəstəsi” də oxuyaq, əl-ələ verib ”Yallı” da gedək.**

**Məhərrəm Şəmkirli**
**AYB- nin və AJB- nin üzvü**

ETİBAR ƏLİYEV

# QƏHRƏMANLAR UNUDULMUR...



*Azərbaycanın Milli Qəhrəmanı Aqil Sahib oğlu Quliyevin doğum günüdür. O, 1963-cü ilin sentyabrın 19-da Ermənistanın Sisyan rayonunun Urud kəndində anadan olub. 1980-ci ildə Azərbaycan Neft Akademiyasının axşam şöbəsinə daxil olub. Üçüncü kursdan hərbi xidmətə çağırılıb.Hərbi xidmətini başa vurduqdan sonra 1985-ci ildə Xarkov Ali Milis məktəbinə daxil olub. Məktəbi fərqlənmə ilə bitirdikdən sonra 1988-ci ildə Milli Ordu qərargahına gələrək hərbi xidmətə yazılıb.*



QULİYEV AQİL SAHİB oğlu
19.09.1963 - 25.02.1992

*1992-ci il fevralın əvvəllərində Aqil Quliyevin rəhbərliyi ilə 366-cı motoatıcı alayın altı BMP-si heyət üzvləri ilə birlikdə girov götürülür. Heyətin sırasında bir rus polkovniki də olur. Təcili girovların geri qaytarılması üçün rəhbərlikdən zəng edilir. Hədələrin və zənglərin ciddi şəkil alacağını düşünərək Quliyev rus polkovniki ilə dialoqa girir. 1 "BMP", 1 "Kristall" raket qurğusu, çoxlu hərbi sursat və 1 maşın ərzaq alır.Bundan sonra girovların geri qaytarılması haqqında yuxarıya məlumat çatdırır. Girovlar geri qaytarıldıqdan sonra ermənilər rus ordusu ilə birlikdə Xocalını mühasirəyə alırlar. Fevralın 18-də Aqil Quliyev qız-gəlinləri Xocalıdan çıxarmaq üçün 11 nəfər döyüşçüsünü götürüb, mühasirəni yarmaq üçün erməni postuna yaxınlaşır. Postda erməni quldurlarına göz açmağa imkan verməyib 21 nəfərini öldürürlər.*

*Yaralanmış döyüşçü yoldaşı İlqar Musayevi təhlükəsiz yerə aparmaq istəyir, lakin avtomatdan açılan atəş onun qıçlarına dəyir. Mühasirəyə düşənlərin hamısı, cümlədən Aqil Quliyev həlak olur.*

*Allah Rəhmət eləsin.*

## *Nümunəvi dönərxanalarda satılacaq dönərlərin qiyməti necə olacaq?*

**Azərbaycanda yaradılacaq yeni nümunəvi dönərxanalarda satılacaq dönərlərin qiymət siyasəti məsələsinə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) müdaxilə etməyəcək.**

**Bunu AQTA-dan cavab olaraq bildiriblər.**

**Agentlikdən əlavə edilib ki, dönərlərin satış qiymətinin müəyyən edilməsi sahibkarların müstəqil qərar verəcəyi məsələdir. Layihənin həmicraçıları tərəfindən sahibkarlar üçün biznesin təşkili və marketinq siyasəti ilə bağlı müvafiq təlimlər keçiriləcək.**

**Baxış keçirilmiş dönərxana obyektlərinin müəyyən bir qismində qida təhlükəsizliyi, avadanlıqların təchizatı, obyektlərdə təmir və yenidənqurma işlərinin aparılması, eyni zamanda seçilmiş hər bir sahibkara və işçi heyətinə təlimlərin keçirilməsi baxımından dəstəyin göstərilməsi məqsədəmüvafiq hesab olunur.**

**Xatırladaq ki, AQTA dönər biznesi ilə məşğul olan qida obyektlərinin sağlamlaşdırılması məqsədilə ƏƏSMN yanında Dövlət Məşğulluq Agentliyi publik hüquqi şəxs, İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) publik hüquqi şəxs və ABAD-la birlikdə dönərxanaların sağlamlaşdırılması layihəsinə start verib.**

**Layihənin icra müddətinin 2020-2021-ci illər üzrə dövrü əhatə etməsi planlaşdırılır. İlkin olaraq paytaxt ərazisində 10, digər şəhər və rayonlarda da 10 obyekt olmaqla, ümumilikdə dönər biznesi ilə məşğul olan 20 nümunəvi müəssisənin yaradılması nəzərdə tutulur.**

# Şeirlərinin tarixinə duyğularının müharibəsini köçürən Emin Piri...

**Bəli, Emin Piri və müharibə şeirləri...Hər bir şairin yaradıcılığında öz dəsti-xətti olduğu kimi, Emin Pirinin də öz dəsti xətti var.Amma demək olar ki,fərqli dəsti-xətt...Çünki az-az şairlərdə belə dəsti-xəttə rast gəlmək olar.Onun özünəməxsus müharibə mövzusunda poetik üslubu təsvir etməsini daha yeni ənənənin novatorluğunun sintezi kimi qeyd etmək olar.**

Düzü əvvəllər çox düşünərdim, niyə məhz demək olar ki,bütün şeirlərinə müharibə hisslərini köçürdür Emin Piri?Səbəb nədir görəsən?

Yaradıcılığı ilə daha yaxından tanış olduqdan sonra sualıma hardasa cavab tapa bildim.Haqqında verilmiş müsahibəsini dinlədikdən sonra tam olaraq səbəb öz yerini tapdı düşüncələrimdə.Emin Pirinin duyğularının müharibəsini şeirlərinə köçürtmə səbəbi öncə uşaqlığının müharibə dönəminə təsadüf edilməsiymiş və illər sonra əlbəttə ki,hərbi xidmət dönəmi də onu bu təsir altından çıxmağa imkan verməyib.Onun "Üç alma" şeiri minlərlə uşağın müharibə dönəmində çəkdiyi acınacaqlı həyat tərzinin bariz nümunəsidir deyərdim. Kasıb uşaqlarının əlçatmaz arzularına həsədlə baxması şeirin ahəngində "müharibə arzuları yarımçıq qoyar" missiyası kimi dolğun təsvir olunmusdur.Şairin bu şeirində uşaqların yeni ayaqqabı arzusuna görə ayaqları böyüməzdi....

*ayaqqabım yırtılardı*
*böyüyəndə ayağım.*
*Ayağınız böyüməsin deyə*
*dua etmisinizmi heç?!*

Uşaqların əlçatmaz arzuları sərhəd məftilləri kimi görünərdi bu şeirdə.İkili fikir daşıyan :

*"Sərhəddin*
*tikanlı məftilləri kimi görünərdi*
*kasıb uşaqlarının gözündə*
*məktəb bufetinin qapısı"*

misraları həm usaqlığın susub danışmağa cəsarəti olmayan arzusu, həm Emin Pirinin müharibəyə qarşı nifrəti açıq şəkildə təsvir olunmuşdur.Bütün şeirlərində qısa amma mətnaltı daha dərin müharibə mövzusuna toxunan Emin Piri müasir dövrun şairlərindən məhz bununla seçilir deyərdim.




Onun "Babamın əlləri", "Suriya","Şəhid oğlunun dedikləri" və .s şeirlərində nəinki öz dövrünün müharibəsi,tarixdə yaşanan müharibələrin acı həyat tarixçəsini dolğun şəkildə əks etdirmişdir.

Daha çox sərbəst vəznə üstünlük verən Emin Piri həmçinin qadın obrazlarına da şeirlərində müraciət etmişdir."Analar da ölür ","Boşanmış qadın","Abort stolunda yalvaran körpə","Təndir ətirli qız" məhz bu silsiləli şeirlərindəndir.

*Qucaqlayıb yastığın*
*cansız ayı balası*
*gecəyarısı*
*soyuq tər içində oyadib səni*
*gözlərinin düz içinə pıçıldar:*
*analar da ölur,dostum......*

**Anadan məhrum olmuş bir uşağın anasız həyatının təsviri bu şeirdə rəsm olaraq çəkilmişdir.Anasının ölməyinə inanmayan bir yetim körpə obrazının heykəltaraşı,memarı olan Emin Piri məhz bu fərqliliyi ilə şeir sənətində özünəməxsusluğu ilə seçilir. Bu xüsusiyyətlərinə görə də şeirinin tarixinə duyğularının müharibəsini köçürən Emin Piri bu duyğularını rahatlıqla oxucularına çatdırmağı bacarıb.**

**Gülnar Ümid**
**Sumqayıt Mərkəzi**
**Kitabxanasının əməkdaşı**

# Müharibə və əxlaq



*Allahverdi Eminov*

*İnsan orqanizmini öyrənməyə 30 əsr, qəlbini öyrənməyə əbədilik, məhv etməyə isə bir dəqiqə bəsdir.*

*Volter*

**Müharibənin öz qanunları var - bu kəlam ənənəvi səslənsə də fəlsəfi mənasını saxlamışdır. Hansı torpağın üstündə və üzərində atəş səsləri eşidilirsə... məğlubiyyətmi, qələbəmi, xalqın məsuliyyətindən öncə dövlət rəhbərlərinin hesabınadır: onlardan biri (işğalçı) insani hisslərini itirmiş, qan gölməçələrindən zövq almış, qəbirstanlıqda günbəgün yerin azalmasına şərait yaratmaqdan qürurlanmışdır: tibb, yaxud psixologiya elmində bu cür Başçının ayaması olmamış deyil!.. Digəri isə (qeyri-işğalçı) öz torpağını, ərazisini qoruyur, xalqının rahat yaşaması üçün milli ordusunu səfərbərliyə alır, şəhirlərini məzarstanda al qırmızı güllər içərisində dəfn edir...**

### *Müharibənin öz prinsipləri mövcuddur*

- İnsanlar sərbəstliyə alışırdısa, indiki vəziyyəti qiymətləndirir, məişət şəraitindən şikayətlənmir, balalarına müharibənin törətdiyi bəlaları "nağıl" edir, əmr, çağırış olarsa yaşından asılı olmayaraq cəbhədə vuruşmağa hazır dayandığını inandırır, müsəlləh əsgər olduğu ilə qürurlanır, təki, Vətən işğalçının əlinə keçməsin, Millətin başı ucalsın!

Müharibənin daha bir diqtəsi özünü büruzə verir - bu, nə nəsihətdir, nə təsirdir, nə də əmrdir, sərəncamdır. Bu millətin genindən gələn ali əxlaqdır, davranışdır. Ana və bacıların, ərli və dul qadınların, sevgili və intizarlı qızların müqəddəsliyidir, iradəsidir, hansı ki arxa cəbhədə kişiləri əvəz edir, övladlarına ümid aşılayır, qalibiyyətlə qayıdacağı intizarını çəkmirlər. Belə qadınları olan Ölkənin əsgərləri heç bir halda məğlub olmurlar. Sübuta yetmiş ki, qadınlarından nigaran qalmayan döyüşçünün yarası daha tez sağalır!

### *Arxa cəbhədə silahsız vuruşan,*

uşaq tərbiyələndirən, ixtisas və dünya görüşündən irəli gəlməyən hər bir qadın iradəsini ortaya qoyur, ehtiraslarını boğur, müharibəni nicat yolu hesab edir. Bu mənəvi - sosial tərzi tarixi olaylar təsdiqləmişdir: İgidlərimiz xalqının şərəfi - namusu naminə, Vətənin azadlığı - səadəti naminə sevgilisindən, balalarından, ətirli çiçəklərdən vücudundan, sehrli ömründən ayrılmışdır. Belə xarakterliləri tərbiyələndirən millət (xalq) tərifə layiqdir ki, bu borcun bir yükü ədəbiyyatın payına düşür. Bir ədəbi faktla kifayətlənirəm. Məşhur yunan dramaturqu Aristofanın "Qurbağalar" komediyasında bir epizod ibrətlidir.

Evrilid Esxilə üz tutur: "Sən neylədin ki insanlar mərhəmətli, ləyaqətli vətəndaş oldular?" - deyir.

Esxil cavabında: "Mən müharibə ruhu ilə dolu bir dram yaratdım" - fikrini çatdırır.

Dionis soruşur: "O hansı dramdır?" - Esxildən sualına cavab alır: "O yeddi sərkərdə" pyesidir.

Qürur duyuruq ki, əsgər və zabitlərimiz ruhun elə bir məmnun ovqatında döyüşmüş, lazım gələndə vuruş iradəsini ortaya qoymuş (2016, 2018, 2020-ci illəri xatırlamaq kifayətdir), qələbə qazanmışlar ki, onları təbii ehtiyaclardan savayı heç nə maraqlandırmamış, murdar bədənli və niyyətli daşnakları oturtmaq hissi baş qaldırmışdır.

***Əsgər və zabitlərimiz doğma torpağımızdan təcavüzkarları, onların yardımçılarını əzib geri çəkindiririksə qənimətimiz, qazandığımız qələbədir, adımızdır, şəhidlərimizin ruhuna mənəvi ehtiyacımızdır, uyduqları məzarlarına diz çöküb rəhmət diləməyimizdir.***

Müharibə vətəndaşların öz borcunu yerinə yetirmək üçün böyük, bəşəri hadisədir, haqlı və haqsız tərəflərin qarşılaşmasıdır, insanların diqqətində və yaddaşında qalmaq şərəfidir: bu isə xeyirxahlıq barədə düşünməyə dəyər, ona görə ki, bu hiss sanki əsgərlərin, zabitlərin özünə verdiyi mükafatdır - Vətənin qələbəsi yolunda qazanmışdır, heç bir halda bunu qəbahət saymağa dəyməz. Çünki bu, hərbiçinin vicdanının təmizliyinə zəmanət vermişdir, taleyin zərbəsinə inamla sinə gərmiş, mənəvi - ruhi mətinlik göstərmişdir, fədakarlığa nail olmuşdur. Belə ki, müharibəyə başlamaq, yaxud qoşulmaq qaydaları vicdanlılıqdır, şücaətlilikdir, - desəm yanılmaram. Qarabağ uğrunda faşist ermənilərlə savaşımız ədalətlidir; gözəldir, hətta ona görə ki, xalqımızda düşmənə qarşı birlik əzmi, ulu torpaqlarımızın azad olunması mətinliyi yalnız qürur hissi oyadır. Biz yeni torpaqlar zəbt etmək üçün vuruşmuruq, sərhədlərimizi genişləndirmək naminə irəli atılmırıq: bu, Ali Baş Kamandanımızın da arzusuna daxil deyil.

### *İnsanlar təcridi halda yox,*

**sosial ümumilikdə birləşmiş şəkildə yaşayıb can - qəlb olurlar, maddi istehsalın əsasında fərdlərin varlığında mühüm əhəmiyyət kəsb edən siyasi, mədəni və ictimai mühiti təşkil edir. İnsanlara məxsus əxlaqi şüur Vətənin vəhdətini özündə ehtiva edib, onu vətənpərvərlik tələbində büruzə vermişdir, ona görə ki, bu məfhum (torpaq sevgisini, onu göz bəbəyi kimi qorumağı, yaşatmağı və s.) zəngin, mürəkkəb, tarixən dəyişkən sosial - əxlaqi və əxlaqi - psixoloji nəsnədir. Vətənpərvərlik sosial və mənəvi mahiyyəti baxımından praktik (real) olaraq müəyyən vətənlər çərçivəsində insanların yekdilliyinə kömək etməlidir. Onu bilməliyik ki, özünün fərdi - psixoloji mexanizminə görə Vətən - Torpaq dərin intim törəmədir, sıx əlaqələrin, inkişafın, məhəbbət hisslərinin şüurlu dərkidir. İnsanlar tarixi şəraitdə alışdıqları mühiti mənimsəyirlər, mühit (aura) isə öz növbəsində fərdlərin ünsiyyətini reallaşdırır.**

Vətənpərvərlik hissini təkcə müharibədə sınamaq birtərəflikdir, bəs təhsil almada, iş başında, vəzifədə necə? Yerini rahatlayandan sonra Vətən üçün nə etmisən? Bu tipli suallara cavab axtarmaq mövcud ictimai - siyasi sistemin əsas fəaliyyəti olmalıdır, çünki vətənpərvərlik siyasi məzmuna da malikdir, başqa sözlə, ümumi olanın, milli vahidin dialektikasıdır, milli xudbinlikdən ayrılmalıdır. Halbuki, idarəetmə strukturlarında özbaşınalığa uymuşlar, korrupsionerlər, sərvət dağıdıcıları üçün Vətən hissi ciblərini isidir, tamahkar mənafeyə xidmətdən xumarlanır. Bu fikri faktlar diqtə edir, malalamır. Dövlətin diqqətindən yayınmayan məmur (yuxarı kalibirli) tiplərdə (qorxuram tipikləşsinlər) Vətən hissi heç vaxt mövcud ola bil-məz, bu həqiqət oradan başlayır ki, onların oğlanları Qarabağ müharibəsinin ünvanını 25 ildir tanımırlar! Bax, vətənin faciəsi burdan başlayır. Belə ki, asanlıqla, arxayınlıqla şəxsi mənafeyini üstün tutan qüvvələrin əməlləri vətənpərvərlik hisslər ilə müqayisədə daha qüvvətli motivdir. Ziyalıların - "aşağı" təbəqələrin gücü çatmır "yuxarı" elita ilə mübarizə aparsın. Çünki onların özbaşınalığı, yüz milyonlarla xalq - dövlət sərvətlərini sərvaxt və sərbəst mənimsəmələri jurnalistlər tərəfindən araşdırılıb oxuculara təqdim olunursa, rəsmilər onda birinə reaksiya verirlər, bəs doqquzu?! Beləliklə, haqlı vətənpərvərlik yalançı vətənpərvərliyin qurbanına çevrilir. Hansı ki, bu "çevrilmə"nin normativ səbəbləri də vardır, bu məfhuma mənəvi hədd kimi insan əxlaqının imkanlarının ən yüksək təzahürü səviyyəsində baxılmalıdır.

### *Elə nəsnələr mövcuddur*

***biz onları seçmirik, bu, öncə Vətəndir, bu, xüsusi xassəli milli və bəşəri sərvətdir, fərdi adamların deyil onun mal - dövlətini hərrac bazarına sürüyüb aparsın, yad - özgə banklarda gizlətsin. Vətən müharibəsiz də müqəddəsdir, bu torpağı, onun sakinlərini seçmək, ayırmaq yaramaz hərəkətdir, lakin ona olan sevgini öz dünyagörüşündə anlamaq və təzahür etdirmək mümkündür. O şəxs öz diyarının uğurlarına və nöqsanlarına ayıq baxışla baxır, yanaşır, Vətənini kor - koranə sevmir, daha doğrusu, ölkəsini, doğulduğu məkanı "kitaizm"lə qarışdırmır (bu termin "özününkünü ona görə sevir ki, özünündür, başqa ölkələrə ona görə nifrət bəsləyir ki, özgədir və öz iyrənciliyinə, eybəcərliyinə sevinməkdən doymur"), təbii ki, vətən övladlarına tənqidi münasibət, yuxarıdan baxmaq, dodaq büzmək və s. şəxsi nihilizmə (eləcə də milli) çevrilməməlidir, əksinə, sığındığı, hənirtisini duyduğu, soyuq ürəyini qızındırdığı Vətənini daha yaxşı, gözəl, abad etmək, inkişafını sürətləndirmək naminə əlindən gələni əsirgəməməlidir.***

### *Yerli səlahiyyət sahibləri*

uzaqgörən olmalıdır, ciddi səhvlərə imkan yaratmamalıdır, səriştəsizliyə yol açmamalıdır, "avtoritar" metodikasını vətəndaşların başında fırlatmamalıdır, "dəyirman daşı" kimi mühakimələrində təkəbbürlüyü sezilməməlidir, özünütənqiddən cırnamamalıdır, ona üz tutan, ehtiyacın gətirdiyi insanların əxlaqi təcrübəsinə etinasız yanaşmamalıdır.

***Təəssüf ki, istənilən sayda belə "birinci şəxslər"də əxlaqi mədəniyyətin çatışmamazlığıdır, laqeydliyin şəksiz əlamətidir, öz nüfuzlarını yalnız zahiri cəhətlərilə şərtləndirirlər, davranışlarına düşüncəsiz israfçılıqla yanaşırlar: tabeliyindəkiləri doğruçuluğa, təvazökarlığa, intizamlılığa, xalq malının qəpiyinəcən qorumağa səslədiyi halda, özləri kadrların seçilməsində təmənna güdürlər, ünvanlarına deyilən tənqidə qarşı qərəzçiliyi ortaya qoyurlar, xalqın milyonlarla malını (sərvətini) mədələrinə ötürürlər, xaricdə oturtduqları, əmək kitabçaları açılmayan oğlanlarının adına şirkətlər açırlar, milyonları o istiqamətə yönəldirlər.***

Yaxşı, bu faktlar dəlil - sübutlarla aşkarlanıb mətbuat səhifələrinə çıxanda və onu yeniyetmə gənclər, əsgər yaşlılar (adi ailələrdən çıxan) oxuyanda hansı hissləri yaşayarlar? Onlardan hansı vicdanla vətənpərvərlik hisslərini gözləmək olar? Məgər Vətəni qorumaq imkansız övladların payına düşmüşdür? Ortabab taleyini yaşayan anaların və ataların qeyrətinə bax ki onların uşaqları, ciyərparaları Milli ordumuzda Vətəninə sevgisiylə xidmət göstərir, şəhidlik zirvəsində əbədiyyətə qovuşurlar.

Adama təəccüblü gəlir ki, otuz ilə yaxındır Qarabağ müharibəsi gedir, vəzifəli məmurlar heç bir nəticə çıxarmırlar, ərköyün balalarını Vətəninə qanunu yolla qaytarıb orduda xidmətə cəlb etmirlər. Qardaş Türkiyədən ibrət almırlar. Vəzifəli məmurun, zəngin biznesmenin övladı və bu cür kateqoriyalıların tərbiyəvi təsirinin ibrətli palitrası o halda inandırıcı olar ki, özü nümunə olsun, əxlaqi məcburiyyət vasitələrinə əl atmasın, qanunun qüvvəsinə istinad etsin. Mən cari (2020.12.iyul döyüşlərini nəzərdə tuturam) ildə nazir Kəmaləddin Heydərovun iki oğlunun rəsmi müraciətini oxudum - cəbhəyə qulluq etmələri (könüllü) barədə - qürurlandım. Bəs "dağıdıcı" vəzifəli şəxslərin (el gözü "tərəzidir" deyib atalarımız), biznesmenlərin, illərlə kreslosunu dəyişməyənlərin vətənpərvərlik hayqırtılarını eşitmədik, halbuki, xarici ölkələrdə atalarının "ofşar" pulları ilə kişilikdən dəm vururlar, xarici xanımlara xas "dəm qazı"ndan xumarlanırlar! Bi-zim ən çətin - karantin dövründə sahildə, yaxud parklarda xoşagəlimliyini arxada itirmiş kübar qadınlar və onların qızları bahalı it (it itdir də!) gəzdirir, onun nazı ilə oynayırlar.

### *Görəsən, həmin ailələrin*

əsgəryaşlı oğlanları harada olublar, Qarabağ döyüşlərində qəhrəmanlıqla vuruşan həmyaşıdları haqqında, barı, məlumatlı idilərmi?! Başa düşmək olmur, boğazı gümüşü xaltalı itlərin gəzintisi hansı əxlaqla "tənzimlənmişdir"?

Erməni daşnakları milli sərvətimiz olan təbiətimizi, onun meşələrini, ağaclarını, çəmənlərini, güllərini qırıb talan etdilər, savaşın bir ucu da bu cinayətə yönəldiyi halda, çölpişiyindən, tüklü meymundan fərqlənməyən bu tulalar, köpəklər fərqli olaraq "seçim" edib ətirli gülləri, yamyaşıl otları, çəmənləri seçib murdarlayırlar. Amma cəbhədə itlər var düşməni uzaqdan tanıyıb üstünə şığıyır, darmadağın edirlər. Bu tulalar, köpəklər də sahibləri kimi "dezirtir" deyillər, sərbəst bağçanı, parkı gəzirlər...

**... Parçalanmış, ovulmuş daşlara laqeyd qala bilmərik. Tapdanmış çiçəklər, soluxmuş güllər hisslərimizi tərpətməyə bilməz. Yaralanmış nəcib heyvan bizim şəfqət emosiyamızı oyadır, ona görə ki, insan mərhəmət sahibidir. Lakin bu hissin o biri üzünü, tərəfini yaddan çıxarmayaq, elə gözdəniraq insanlar - kişilər var, onları heyvanla eyniləşdirməyə dəyər, bəlkə, həqiqətən heyvanla "bərabərlik" münasibətlərinə girirlər.**

# DOVŞAN VƏ QARIŞQA



*Qədir TƏRTƏRLİ*

Hekayə

Dovşan həyətdə oturub nə haqdasa fikirləşirdi. Birdən Qarışqanın axsıya-axsıya ona yaxınlaşdığını görüb təəccübləndi:

- Nədi, nə olub ay Qarışqa? Gözümə birtəhər dəyirsən.

Qarışqa yazıq-yazıq, əzgin və yalvarıcı bir səslə:

- Ölürəm. Heç taqətim qalmayıb. Tərs kimi yoldaşlarımdan da yanımda olanı yoxdu. Deyəsən, elə burada yiyəsiz öləcəyəm.

Dovşan Qarışqaya təsəlli vrdi:

- Yaxşı-yaxşı, elə bədgüman olma. Nə olub ki, Allaha şükür. Xəstəlikdi də, keçib gedər. Olmaya xəstəlikmi görməmişik? Nə olsun ki, yoldaşların yoxdu yanında. Mən ki, burdayam. Bə qonşu döyülükmü?

Qarışqa dil-ağız elədi Dovşana:

- Allah qonşuluqdan əskik elləməsin Sizi. Vallah, elə deyirəm ki, bəxtimizdə bir şey varmış ki, siznən qonşu olmuşuq.

Dovşan Qarışqanın qoluna girib içəri dəvət etdi onu:

- Di yaxşı, çöldə dayanma. Keç içəri!

Qarışqa içəri keçdi:

- Maşallah! Göz dəyməsin, yaxşı eviniz var. Özü də gen-bol.

- Hə, genişdi genişdiyinə - dedi Dovşan. Di yaxşı, sən uzan, dincəl bir az. Mən də çaydan-çörəkdən hazırlayım. Xəstə yaxşı yeyib-içməsə, dirçəlməz.

Dovşan mətbəxə keçdi. Aradan çox keçmədi ki, olandan-olmazdan hazırlayıb tökdü Qarışqanın qabağına.

- Bax, bu sulu xəngəldi. Xoşun gələcək. Xəstəninki elə belə şeylərdi. Yaxşı-yaxşı ye, üstündən də bir fincan kəkotu çayı iç. Uan dəramıdı bunlar. Sağaldacaq səni.

Qarışqa görmədiyi günə düşmüşdü. Xəstəliyi nə gəzirdi ki, bəhanəydi bunların hamısı. Bəsdi deyincə yeyib-içdi... Aradan bir müddət keçmişdi. Qarışqa guya özünü utancaq kimi göstərərək:

- Qonşu, - dedi. İstəyirəm sənə bir söz deyəm. Amma utanıram. Sonra deyərsən ki, üz verdim deyə, astar da istəyir.

Dovşan dedi:

- Heç ayıb deyilmi, bu nə sözdü deyirsən? İnciyərəm səndən. Nə sözün varsa, utanma de. Bə, qonşu qonşuya hansı gündə lazım olar?

Qarışqa güclə eşidiləcək asta səslə dilləndi:

- Qonşu, deyirəm bəlkə icazə verəsən elə bir müddət sizdə qalam. Qabağı qışa gedir. Payızın soyuqlu, küləkli günləri gəlir qarşıdan. Bizim yuvamız da ki, çox soyuq olur. Yay gəlib havalar isinənəcən burda qalsam, sağalaram. Elə Allaha da xoş gedər bu yaxşılığın.

Dovşan fikrə getdi.

Qarışqa onun belə susduğunu görüb dilləndi:

- Yoxsa, ürəyindən olmadı bu sözüm?

Qarışqanın bu sözünün cavabında Dovşan:

- Yox, - dedi. Mən ayrı şeyə görə fikirləşirdim. Bilirsən, bizdə belə bir qayda var. Hər nə iş görsək, böyüklərimizlə məsləhətləşməliyik. Onların xeyir-duasın almalıyıq. Ağzımız onun ağzına dəyməmiş bir söz deyə bilmərik.

Qarışqa razılığınıi bildirdi bu sözlə:

- Nə deyirəm, qoy sən deyən olsun.

… Dovşan Qarışqanın bir müddət onlarda qalması barədəki təklifinə razılıq almaqdan ötrü böyüklərinin yanına getdi.

Dovşanların böyüyü deyilən təklifə etiraz eləmədi:

- Mən belə şeylərə heç vaxt yox demərəm. "Bir quş bir budağa sığınar", - deyiblər. Nə olar, qəribdilər, qoy ürəkləri sınmasın. Elə Allaha da xoş gedər bu iş. Get de ki, razılığını aldım böyüyümüzün.

"Xəstə qarışqa" da, onun yanına gəlib-gedənlər də razılığı alınan təklifə sevinir, əl altdan yavaş-yavaş öz işlərini görürdülər.

Qarışqalar qısa müddət ərzində dovşanların xeyli sirlərini öyrənmişdilər. Öyrənmişdilər ki, dovşanların evlərində və həyətlərində yaşadıqları yerlərin onların olması barədə tutarlı nişangahları yoxdur. Bu, onlara çox lazım idi. Ona görə lazım idi ki, yaşadıqları yerlərin dovşanlara yox, onların özlərinin olduqlarını sübuta yetirə bilsinlər. Bunu sübut etmək üçün də ayrı-ayrı yerlərdən dovşanları köməyə çağırıb, yuvalarının böyür-başında qazıntı işləri apararaq öz nişangahlarını qoymuş, necə deyərlər, işlərini çox ehtiyatlı tutmuşdular.

… Bir gün dovşan həyətə çıxanda gözlərinə inanmamışdı. Əvvəllər bu yerlərdə tək-tək gözə dəyən qarışqalar saysız-hesabsız çoxalmışdı. Bu çoxalan qarışqaların da hamısının əlində bayraqlar vardı.

Dovşan elə bu vaxt onun yanına gələn başqa bir Dovşandan soruşdu:

- Bu nə həngamədi belə? Bu qədər Dovşan haradan gəlib bura? Hamısının da əlində bayraq var. Görən nə istəyir bunlar?

Gələn Dovşan cavab verdi:

- Bə, eşitməmisən ki, qarışqalar mitinq keçirir? Məqsədləri bizi buradan qovmaqdır. Deyirlər ki, bu yerlər elə bizim dədə-baba yerlərimizdi. Dovşanlar haradansa gəlib sahib olublar bu yerlərə. Özləri də ki, qan-qani deyirlər. Dovşanlarla dalaşmağa bir balaca bəhanə axtarırlar.

Dovşan istədi ki, evə gedib xəstələnəndə qayğısına qalıb nazını çəkdiyi Qarışqadan daha ətraflı məlumat alsın. Ancaq evə gəldikdə onu evdə tapmadı. Sabahısı gün "xəstə qarışqa" qarşısına çıxanda ona giley-güzarını çatdıraraq dedi:

- Ay nankor, elə budurmu sizin etibarınız? Bunlardımı bizim sizə elədiklərimizin əvəzi?

Dovşan gördü ki, Qarışqa onnan daha əvvəlki tonda danışmır, hələ desən, onu borclu da çıxarır.

- Siz bizi aldatmısınız, - deyir. Bu yerləri çox nahaq yerə öz adınıza çıxmısınız. Bu yerlər elə əvvəllərdən bizim dədə-baba yerlərimiz imiş.

Dovşan belə nankorlarla danışmağın mənasız olduğunu görüb dedi:

- Ayrı heç nə demirəm. Bircə onu deyirəm ki, kökünüz kəsilsin sizin! Evi yıxılsın sizi biznən qonşu eliyənlərin!

… Mitinq keçirilən günlərdən azacıq sonra qarışqalar dovşanları öz doğma yerlərindən qovdular. Çadırlarda yaşamaq nəsib oldu dovşanlara. Yayın qızmar istiləri, qışın qarlı-çovğunlu günləri taleyinə yazıldı dovşanların…

Dovşanlar bezmişdilər çadırlarda yaşamaqdan. Bir gün ağsaqqallar yığışıb sözü bir yerə qoydular ki, filin yanına getsinlər. Dünya dərəbəylik deyil ki, dəvədən böyük fil var. Gedib dərdimizi deyək ona. Bəlkə bir əncam çəkilə bu işə.

Dedikləri kimi də etdilər. Filin yanına gedib, əhvalatı təfsilatıynan danışdılar ona.

Fil komissiya yaratdı. Komissiya neçə gün işlədi, xeyli araşdırma apardı. Tarixə, rəsmi sənədlərə əsaslanıb axırda filə məlumat verdilər ki, qarışqalar haqsızdı. Onların zorakılıqla tutduqları yer dovşanlarındı. Qarışqalar yerli deyil, gəlmədirlər.

Fil dərhal qərar çıxardı: "Qarışqaların zəbt etddiyi yerlər dovşanların olduğuna görə, qarışqalar dərhal, heç bir bəhanə gətirmədən tutduqları yerlərdən çıxarılsınlar. Dovşanlar öz dədəbaba yerlərinə qayıtsınlar!".

Fil bundan əlavə "sülhsevərlər" adında bir təşkilat da yaratdı. Ayını, Pələngi və Uanavarı da həmin təşkilata daxil edib, özlərinə də tapşırdı ki, bu işin ədalətli həllinə nail olsunlar.

Amma Filin dedikləri havada qaldı. Nə ayı, nə Pələng, nə də Uanavar uzun illərdən bəri bu işi ötür-ötürə salıb heç bir iş görmədilər.

Sən demə, az-çox görülən işlər rəsmiyyət xətrinə görülən işlər imiş. Oyun imiş bunların hamısı! Adı da beləymiş bu oyunun: "Dovşan və Qarışqa" oyunu! Dünyanın çal-çağrına dəm tutduğu oyun!..

# Sözə sevdalılıq sualı

**Sözü üzərrik bilən, ürəyini, duyumunu, düşüncələrini sözə nazbalınc eləyən, sözün qədrini bilən, sözün cəfasını çəkən, sözün işığını söz uğuruna salavat bilən Ənvər Çingizoğlu ömrünü sözə verən söz adamlarının sırasındadı; belə ömürlər dumduru olur...**

Söz tünlüyündə sözün özünün tənzimlədiyi bir nizam var. Allah söz qədrini bilənləri sözün tünlüyündən saxlasın. Ənvər Çingizoğlunun sözünün boyu sözün tünlüyündə də aydınlığıyla görünür. Onlarla kitab, hər kitabda yüzlərlə səhifə, hər səhifədə yüzlərlə söz - Ənvər Çingizoğlunun söz xəzinəsi belə ölçülməlidi, bu sözlərin çoxusu Çingiz kişinin oğlu Ənvərin bəlli yaşına irfani yaş gətirib. Belə olduğuna görə o da Dədə Qorqud yaşında olan söz adamlarının sırasındadı. Neçə on illər əvvəl Ənvər Cəbrayılın Xudayarlı kəndində nənəsinə ünvanladığı sorğunu da biçiminə görə bu sırada bilməsə, söz kirədarlarının ən insafsızı deyin Rəşid Faxralıya...

Körpəliyi, uşaqlığı Cəbrayılın Xudayarlı kəndində keçən Çingiz oğlu Ənvər Arazın kövrək pıçıltısını da eşidib, qəzəbini də görüb, kükrəyişini də duyub.

Xudafərin körpüsünün gözdoyduran, könül qubarlandıran görkəmi Ənvərin düşüncələrini o vaxtlar tərpədib. O vaxtlar bu titrəyişin heysiyyət olduğuna kimsə şübhə etməsin. O yaşda uşağın ürəyini üzən sualın mayası məhz fidanca bir heysiyyət ola bilərdi (bu heysiyyət illər sonrası türk dünyasının səyyarələri sırasında mərdanə dayanıb). Bu heysiyyəti yaşadan ruh olub (harda türk var, ora mənə Vətəndi düşüncəsiylə yaşayanların hamısını Ənvər də ruh qardaşı bilir, mən də). Günlərin birində Xudafərinə baxıb, Araza baxıb, sonra umacaqlı baxışlarla göy üzünə baxıb. Ayaqları bir-birinə dolaşa-dolaşa özünün nənəsinə yetirib: ”Üstündən keçilməyəcəkdisə, tikənlər onu niyə tikirdi, ay nənə?” - insafsızcasına Zəhra nənəsinin ətəyini dartışdırıb. Araz adı gələndə, Xudafərindən söz düşəndə göz yaşları hərdən yanaqlarını yandıran, hərdən, ürəyinə axan dərdəcar nənə yaşından tez böyüyən nəvəsinin saçlarına əl gəzdirib. Nəvə nənəsinə sığınıb, nənənin göz yaşları nəvəsinin kürəyini isladıb....

Nə deyəydi nənə? Necə deyəydi ki, ruhumuzu bölməyə gücləri çatmasa da ömrümüzü böldülər, ay bala, ruhu candan ayırdılar. Necə deyəydi ki, illərdi bacımdan iraq düşmüşəm. Hərdən, sərhədçilərin gözündən yayına biləndə bu sahildən o sahilə danışırıq. Beş-üç kəlməsini eşidirəm, beş-üç kəlməmi eşidir. Gərdi-



şin insafsızlığına boyun əyirəm, çarəsizliklə deyirəm ki:

*Əsən nəsimdi, ay bajı,*
*Nəsim nə simdi, ay bajı?!*
*Üzünü görəmmirəm,*
*Səsin bəsimdi, ay bajı...*

Kəlmələr dodağımı külə döndərir. Səsimi Araz udur, hər qış udur, hər yay udur, hər yaz udur.

Aşıq Dirili Surxayın pilə gəraylılarıyla, qönçə misallı qoşmalarıyla, illah da bayatılarıyla gecəni səhər edənlərin dizinin dibini kəsdirərdi Ənvər. Kəlmə-kəlmə, avaz-avaz uyuyardı. Bu uyumanın, belə uyumanın sevda uyuması olduğunu kimsə bilməzdi. Bu sevda sizə sevdalığıymış (qınayanım olmasa buna buta da deyərdim)...

Aşıq Surxay nəvəsinin nənəsinə verdiyi qəfil sualı eşidəndə bir qədər duruxub, əlini gözünün üstünə qoyub, Diridağa sarı boylanıb, əli bir ayrı biçimdə nəvəsinin çiyninə enib:

”Xudafərinin taleyi cin düyününə düşüb, a bala. Sualının cavabını zamanında özünüz tapacaqsınız, Xudafərindən keçənlərimizi siz uğurlayacaqsınız. Sonra iki yarpaq bayatı pıçıldayıb:

***...kürü dağ,***
***Dağ təbimi bürü, dağ.***
***Könlüm ocaq yeridi,***
***Gəl dərdimi kürü, dağ!***

***...biri dağ,***
***İri təpə, iri dağ.***
***Bizə köntöy baxanı,***
***Diri basdır, Diridağ!***

Ənvərin bu sualına nənəsi yox, dünya cavab verməliydi, əslində. Bu günəcən dünya bu suala cavab verə bilmir.

50 ildən çoxdu düyünə düşmüş bu sual Xudafərinlə bağrıbadaş olanların düşüncələrinin pərsəngidi. Neçə-neçə ”niyə”lər Ənvərin nənəsinin gözlərindən yaş dərən ”niyə”sinin mahiyyətiylə çözüləcək.

Arazın ləpədöyənindən bir qədər aralıda ilkin xeyir-duası bu dörd misra, bir də bu misralar qədər düşündürən bu kəlmələr olub sözün cəfakeşi olan Ənvər Çingizoğlunun:

”Zamana bəd gətirdi, dərdin ürəyimə. Əli ələ, dili dilə, könülü könülə, eli elə birləşdirən bu körpüdən qəflələr keçərmiş, ləşkərlər döyüşə burdan gedərmiş, döyüşdən bu yolla qayıdarmış.

Bu körpüdən qızılbaşlarıynan Xətayi şahım da çox keçib...” - nənəsinin dedikləri Ənvərin yaddaşında belə söz tərkibləriylə qalıb.

Körpünün Xudafərin olduğunu bilirdi Ənvər. Xətai, qızılbaşlar, qəflə, ləşkər, nəsim, ... kəlmələrini onda eşitmişdi. Eşitmişdi, o kəlmələrin qədimliyinin sehrinə, ovsununa düşmüşdü.

Soruşan olsa, bəlkə özü də dürüst cavablandıra bilməyəcək: folklorun, bir də tarixin, etnoqrafiyanın sehrinə ondamı düşübsən Çingiz oğlu Ənvər?! Orta məktəbdən düz-əməlli ayrılmamış təfəkkürünün, təfəkkürümün buyruqçusu olan qələminin güzarı Azərbaycan radiosunun ”Bulaq” verilişinə həmin gündənmi meyillənib?!

**O kəlmələrin işığı nurlandırıb jurnalistikaya qədərki tədqiqatçılıq yolunu, nənəsinin həmin gün kövrəkliklə dediyi kəlmələr uğurlayıb Çingiz oğlu Ənvəri Ənvər Çingizoğlu eləyən yaradıcılıq yolunu...**

**Rəşid FAXRALI**

# "Ədəbi mühitin üstünü qara kələğayı ilə örtüblər"

***Həmsöhbətimiz gənc şair Habil Rzanurdur.***

**-Xaçmazdan Bakı ədəbi mühiti necə görünür?**

-Öncə onu deyə bilərəm ki, son dönəmlərdə ədəbi mühit görünmür. Elə bil üstündə qara kələğayı var, kimsə qəsdən örtüb. Ya da "ədəbi mühitin" ədəbi ədəbindən utanır, gizlənir, görünmək istəmir. Qaldı Xaçmazdan necə görünməyinə, tam səmimi deyirəm oradan Xaçmaz necə görünürsə, Xaçmazdan da məhz elə görünür.

**-Dövlət qulluğunda çalışırsan. Bu şair kimi mane olmur? İstər-istəməz bu iş yaradıcılığın üzərində senzura yaradacaq.**

-Məni heç kim dövlət qulluğunda çalışmağa məcbur etməyib, çalışdığım orqan da kiminsə həyatına müdaxilə etməyimə izn verməyib. Hər daş öncədən kimə atılacağını bilir, hiss edir. Mən heç vaxt nə daş olmamışam, nə də daş atan, belə hallarda hədəf olmaq içini rahatladır. Daxilində gizlədiyin məsumluq üzə çıxır, paklanırsan. Qulluğunda olduğum orqanda yalnız pedoqoji və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq imkanım var, şeir yazmağım isə hal-hazırda çox müsbət qarşılanır, iş həyatıma bir başa təsir edir, yarı zarafa-yarı gerçək onların fəxriyəm. Yazmaq istədiyimi də yazmışam şeirlər də ki, sübut.

### *Yaşadıqlarımızdan deyil, yaşamadıqlarımızdan yapışmalıyıq*

**-Mərmi "lülədən ayrılmıram"-deyib nə vaxt üsyan edəcək? Bəlkə mərmilərin üsyanı barmaqlarımızın tətiyi çəkmirəm- üsyanından sonra olacaq?**

-Səhv etmirəmsə, ilk imperialist quruluş Akkadlar olub, o çağdan bu günə qədər hətta bu cümləni bitirdiyim ana qədər bizə məlum olan tarixdə cəmi 26 gün müharibə olmayıb. İnsanlığın ən çox utandığı rəqəmdir bu bəlkə də, amma biz durmuruq, artıq yaşamaq deyil, öldürmək üçün savaşırıq. İnsan mənim tanıdığım insandırsa, o barmağı kəsər, heç bir halda tətikdən vaz keçməz. Bu misra "XXII" şeirimdəndir. Adından da məlum olduğu kimi XXII əsr biz yaşadıqlarımızdan deyil, yaşamadıqlarımızdan yapışmalıyıq. Ümid edirəm bir gün zorla lüləsindən ayırdığımız mərmilər, üstünə tüpürdüyümüz səkilər, ac qoyduğumuz zibil qabları, abort masaları insandan bunun hesabını sorocaq.



**- Şairi şairinin başını 5-10 manat qonorara görə istədiyi bir cəmiyyətdə neft quyularından ağ göyərçinin çıxmasını gözləmək Don Kixotluq deyil?**

-Bu misal göstərdiyiniz cümlə də elə XXII əsr şeirimdəndir. Əlimdə seçim olsa ya Don Kixot olardım, ya da Novruzəli. "Aradakı fərq Ədəbiyyatla ədəbi mühit arasındakı qədər olsa da, bu belədir."

### *Mən balaca adam deyiləm*

**-Dualar, anaların dilində müqəddəsləşirsə, eşidilirsə, bu qədər ana ağısı hardandır? Eşitmirsən? Mənim qulağım belə batır.**

-Bir şeirimdə Allaha səslənirəm ki, İnanıram varlığına, İnanmıram lallığına, korluğuna, karlığına. Bir əsa lütf eylə bizə, Bir Musa göndər yenidən. Böl dənizləri ikiyə, bu dünyaya barış göndər. Birdən ağlasan incimə Üzünü çevir cənuba Afrikaya yağış göndər. Tam ciddi deyirəm, mən balaca adam deyiləm.

Mən öz uşağının gülüşünü görən adamam. "Harada bir ac varsa, onun payından mən də yemişəm" etirafını edə bilən adamam. Belə deməklə bəlkə də, yaradanın diqqətini çəkmək istəmişəm.

"Bax ha, bu duanı ana edib, sən də müqəddəs olanları çarəsiz qoymazsan." deyə.

**-Hələ Mirzə Fətəli Axundov "Kəmalüddövlə məktubları"nda deyirdi ki, mənasız sözləri bir yerə yığıb sonunu qafiyələndirirlər. Adı da olur poeziya. Poeziya nədir?**

-Mənim üçün poeziya iki üstəgəl ikinin dörd eləmədiyi aləmdir.2017 də" Zibil qabı" şeirini yazanda Musa Yaquba oxudum, qayıtdı ki, adam var şeiri zibilə çevirir adam da var zibili şeir edir. İndi mənə görə poeziya o nöqtədə ilişib qalıb, sən gözəl görünən bil gülə, ağaca, nə bilim qarışqaya salam verə bilmirsənsə, təkcənəliyə çəkilib ona "siz" deyə müraciət edə bilmirsənsə sənin poeziyaya aidiyyatın yoxdur.

**-Bu qafiyə davası bizim ədəbiyyatda çox çəkəcək?**

-Əşi Molla Pənahın dövründən birbir yaralı Maral ilə bir incə Ceyran var. Ha qovurlar, ha qovurlar maşallah nəyimiz olmasa da Şalbana tülpan qafiyyəmiz var həmd olsun. Mən də qafiyə burulğanında itib batan vaxtlar keçirmişəm, demirəm pisdir, kökənlərimizdə bu var. Amma inkişaf, dəyişmək mütləqdir, vacibdir. Hələ biraz da çəkəcək.

**-Argentinalı tənqidçi deyir ki, şeiri hər kəs yaza bilər. Bəs, poeziya? Poeziyanı hər kəs yarada bilmir.**

-El misalı "Allah onun ölənlərinə rəhmət eləsin. Bir tanışım vardı deyirdi şair, bilirəm e, nə deməliyəm sadəcə sözləri gud eliyə bilmirəm (yəni yığa bilmirəm). Məncə hər kəs bacara bilər, sadəcə gud eləyə bilmir.

**- Poeziya sillədir. Oxucuya vurduğun sillə. O sillə oxucunu var olduğu dünyadan ayrı dünyaya aparır. Habil indiyə kimi oxucuya sillə vura bilibmi? Vurubsa neçə dəfə, hansı misralarla?**

-Tamami ilə razıyam, biz elə bir dünyada yaşayırıq ki, "burda mərmilər də çox ədəblidir, böyüklü-kiçikli kimi görsələr görüşürlər".

Bəzən tankların atəş səsində "Cənnətlə cəhənnəmin bir-birinə necə çığırdığını görürük" bəzən də "qızılgül kollarının insanlar atəş açıdığını, insanların al ləçəklərə boyandığını görürük".

**Söhbətləşdi:**
**Emin Piri**

# Neftçalada 18 yaşına çatmamış qızın qeyri-etik fotolarını çəkərək yayan şəxs həbs edilib

**Bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində süni ajiotaj yaratmaq məqsədilə ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən Neftçala rayonunda 18 yaşına çatmamış qızın qeyri-etik fotolarını çəkərək yayan şəxsin cinayət məsuliyyətinə cəlb edilməməsi ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar yayılmışdır.**



Baş Prokurorluğun Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, qeyd olunanlarla bağlı tərəfimizdən bildirilir ki, Neftçala rayon sakini Aytən Əliyevanın (ad şərtidir) eyni məzmunlu müraciəti üzrə Neftçala rayon prokurorluğunda araşdırma aparılmışdır.

Aparılmış araşdırmalarla Əyyar Əzizovun qeyd edilən cinayət hadisələrini törətməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Neftçala rayon prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.

Prokurorluq və polis əməkdaşlarının həyata keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində Əyyar Əzizov müəyyən edilməklə təqsirləndirilən şəxs qismində cəlb olunmuş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.



*Dilqəm TƏMRAZ*

## *ZƏFƏR BİZİM OLACAQ!*

**Uca Allahımızın**
**99 adıyla.**
**Gəlin savaşa gedək**
**Qəlbimizin adıyla**
**Son vuruşa gedək**
**Zəfər bizim olacaq!**

**Bizi tora salıblar,**
**Gəlin bu tordan çıxaq.**
**Diri-diri basdırıblar,**
**Gəlin bu dardan çıxaq,**
**Zəfər bizim olacaq!**

**Qəzəllənib qalxmağın,**
**Vaxtı çoxdan gəlibdi.**
**Türkük - azadlığımız,**
**qılıncdan, oxdan gəlibdi,**
**Zəfər bizim olacaq!**

**Azəri türküyük biz,**
**gəlin əsil türk olaq.**
**Dörd yanımız düşməndi,**
**biz onlara görk olaq,**
**Zəfər bizim olacaq!**

**Tanrı bizə yar olar**
**Haqqın savaşıdı bu,**
**Böyük bir milləti,**
**Xalqın savaşıdı bu,**
**Zəfər bizim olacaq!**
**Qələbə bizim olacaq!**

## *BU YOLDA ŞƏHİDLİK QAZİLİK DƏ VAR*

**Ədalət günəşi doğacaq bir gün,**
**Bu yolda şəhidlik, qazilik də var.**
**Qələbə bizimlə olacaq bir gün,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Gözdağı veriləsi bir məqam gəlib,**
**Çoxdan gözlədiyimiz intiqam gəlib,**
**Yağıları qırmaq qana-qan gəlib,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Yurddan qovmalıyıq vətənsizləri,**
**O işğalçıları, o dinsizləri.**
**Qanla yumalıyıq kirli izləri,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Soysuzlar əlində ulular yurdu,**
**İblislər evimdə "haqq-divan" qurdu,**
**Ərən oğulları arxadan vurdu,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Qurban olum əsgər, Laçını qaytar,**
**Şuşa tək gözəllik tacını qaytar,**
**Əsirlikdəki ana-bacını qaytar,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Düşmən qabağına alnıaçıq çıx,**
**Donuz başlarında ildırım tək çıx,**
**Oğullar arxanca gələcək çox-çox,**
**Bu yolda şəhidlik, qazilik də var.**

## *YOL AYRICINDA*

**Durmuşam Şəmkirin yol ayrıcında,**
**Bir həzin məhəbbət yağışı yağır.**
**Bəlkə göylər deyil, qızdı ağlayan,**
**Vüsalsız bir eşqin qarğışı yağır.**

**Qəlbimin kitabı açılıb yenə,**
**Xoş xatirələri yel varaqlayır.**
**Özüm qocalsam da, eşqim cavandı,**
**50 ildən sonra yar soraqlayır.**

**Ürəyim kövrəlib, gözlərim dolub,**
**Kirpiklər dumduru şehə qarışır.**
**Sən taleyə bax ki, kədərli ömrüm,**
**Vüsalsız eşqiylə harda barışır.**

**Dayanıb qalmışam yol ayrıcında,**
**Yaralı quş kimi uça bilmərəm.**
**İstəyirəm gedim Tovuza sarı,**
**Xatirə əlindən qaça bilmərəm.**

**Buludlar ağlayır, yerlər yas tutur,**
**Bütün nakamların yerinə bu gün.**
**Torpağın da qəlbi kövrəlib necə,**
**Hopur göz yaşlarım dərinə bu gün.**

Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

№ 107 (2141) 22 sentyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# ERMƏNİLƏR LAYİQ OLDUQLARI CAVABI ALACAQLAR

**Bu gün dünya ictimaiyyətinin gözü qarşısında baş verən ədalətsizliklər bir növü adi hala çevrilib. Və bu adilik də artıq saysız-hesabsız qurbanların verilməsini də adiləşdiribdi. Bu işdə BMT-nin zəifliyi, heç bir səlahiyyət sahibi olmaması, eləcə də illərdi ki, başımızın altına yastıq qoyan ATƏT-ni Minsk qrupunun oynadığı rol da, tutduğu və həyata keçirdiyi ikili standart da göz önündədi. Deməli, bütün bunlar onu göstərir ki, beynəlxalq güclər kimi beynəlxalq təşkilatlar da açıq-aşkar həqiqətin yox, ədalətin yox, işğalın, işğalçının yanındadılar. Üstəlik, bu həm də onu göstərir ki, Qafqazda toqquşan maraqlar Azərbaycan ədalətini kölgələyir və Ermənistanın işğalçı siyasətinə dəstək verir.**

Bəli, real vəziyyət indi bütünlüklə göz önündədi. Hətta azacıq siyasətdən anlayışı olan, baş verən hadisələrdən bilgi toplaya bilən hər kəsə məlumdu ki, ermənilər öz havadarlarının, eləcə də onlara xristian həmrəyliyi dəstəyini verənlərin əlini öz kürəyində hiss etdiyindən danışıqlar prosesini uzatmaq üçün hər cür vasitələrə əl atır, üstəlik, özünün işğalçı niyyətini də gizlətmir. Bu mənada Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən məəskunlaşma, eləcə də Şuşada, Laçında, Kəlbəcərdə və digər kənd və şəhərlərimizdə ermənilərin apardıqları tikinti işləri, həmçinin Azərbaycanın yeraltı, yerüstü sərvətlərindən həyasızcasına bəhrələnmək bu dediklərimizə aşkar bir sübutdur. Çox qəribədir ki, bütün bunlar da məhz həmsədrlərin, yəni ABŞ, Fransa və Rusiya kimi qüdrətli dövlətlərin bilavasitə gözləri önündə həyata keçirilir. Bu prosesə müxtəlif don geyindirən ermənilər, eləcə də Ermənistanın baş naziri Nikol Paşinyan özünün müsahibə və çıxışlarında, açıqlamalarında birmənalı şəkildə Azərbaycan torpaqları barəsində öz mal-mülkləri kimi fikir yürüdür, bu torpaqların sahiblərini sanki görmürlər.

Bu ilin sentyabr ayında qondarma Dağlıq Qarabağ Respublikasının başçısı özünün açıqlamasında vurğulayıb ki, onlar Azərbaycanla olan münaqişəni nizamlamaq üçün yerli prinsip irəli sürüblər. Həmin açıqlamadan sonra Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması da bəyanat yayıb. Həmin bəyanatda vurğulanıb ki, "Ermənistan həm özü, həm də işğal olunmuş ərazilərində yaratdığı qondarma qurumun dili ilə ölkəmizə qarşı təxribatçı bəyanatlar verməkdə davam edir. Bir müddət öncə Ermənistanın baş naziri Nikol Paşinyan da əsassız və təxribatçı yerli prinsip ilə çıxış etmişdi. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları da bununla bağlı yalnız bir şərt irəli sürür:

**- Ermənistan öz qoşunlarının Azərbaycanın işğal olunmu. ərazilərindən çıxarmalıdır!"**





Dağlıq Qarabağın Azərbaycanlı İcması da ölkə prezidentinin mövqeyini birmənalı şəkildə müdafiə etməklə Ermənistanın və qondarma respublikanın başçılarının 7 prinsipinə etiraz olaraq bildirir ki, "Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal edib, etnik təmizləmə aparıb. Bir milyona qədər azərbaycanlını öz doğma yurd-yuvalarından didərgin salıb, işğal olunmuş torpaqlarımızda cinayətkar rejim yaradıb. Odur ki, cəzasızlıqdan və həyasızlıqdan qaynaqlanan bu "prinsiplər" tamamilə qəbuledilməzdir. Danışıqların formatı dəyişə bilməz, münaqişənin tələbi Ermənistan və Azərbaycan, maraqlı tərəf isə Azərbyacanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarıdır."

***Bəli, bu gün Ermənistanın davamlı şəkildə atəşkəsi pozması həmsədrlərin və dünya ictimaiyyətinin laqeydliyi üzündən müharibəni qaçılmaz edir. Artıq Azərbaycan ordusu düşmənə həm 2016-cı ilin aprelində, həm də bu ilin iyulunda öz gücünü göstərib. Demək olar ki, ordumuz düşməni təkcə susdurmaq yox, həm də ərazilərimizdən qovub çıxarmaq gücündədir. Lakin həmişə sülhpərvərliyi ilə seçilən xalqımız Qarabağ düyününü də danışıqlar yolu ilə həll etmək yoluna üstünlük verməklə dünyaya göstərib ki, baş verəcək böyük savaşda bütün məsuliyyət Ermənistanın üzərinə düşəcək. Əgər mətbuatda yayılan bilgilərə diqqət yetirsək, onda görərik ki, məsələnin ciddiliyi erməni politoloqlarını da rahatsız edir. Belə ki, erməni politoloqu Artur Danielyan özünün soz açıqlamasında vurğulayıb ki, "Paşinyanın Ermənistanı bataqlıqdan çıxarmaq üçün nə konkret proqramı, nə də "yol xəritəsi" var. Ona görə də biz torpaqları geri verməsək, Azərbaycan bunu hərbi yolla edəcək. Paşinyan pat vəziyyətdə qalacaq".***

Həmin mövqeni digər bir erməni politoloq olan Levon Şirinyan da qabardıb. O da vurğulayıb ki, "artıq neçə ildir ki, hamımız mühacirətdən danışırıq. Və bilirik ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Buna görə də Ermənistanda vəziyyətin düzəlməsini istəyənlər öz qoşunlarını Azərbaycanın torpaqlarından çıxarmalıdır. Çünki gələcəyimiz Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir".

***Bütün bu sitatların özündən də göründüyü kimi, Ermənistanın özündə də artıq dərk edirlər ki, müharibə qaçılmazdır və bu qaçılmaz müharibənin də məsuliyyəti Ermənistan hakimiyyətinin üzərinə düşür. Onlar nə qədər prosesi uzatmağa çalışsalar da, bunun sonu olmalıdır. Azərbaycanın baş nazirinin müavini, YAP-ın Sədr müavini - icra katibi Əli Əhmədov özünün son açıqlamalarında vurğulayıb ki, "Erməni təxribatları və Minsk qrupunun susqunluğu göstərir ki, ATƏT-in Minsk qrupu birtərəfli müşahidəçiyə çevrilib. Bu da yumuşaq desək, təəccüb doğurmaya bilmir. Onsuz da Minsk qrupu münaqişənin bu qədər uzanmasını, düzgün və ədalətli mövqe tutmaması, məsuliyyətdən yaxasını çəkməsi mümkün deyil. Onlar bunu edə bilməz. İndi isə Misk qrupunun gözü qarşısında ermənilər yeni, daha acı nəticələrə gətirib çıxara biləcək cinayətlər törətməkdədilər."***

Doğrudan da ermənilərin həm hərbi sahədə, yəni atəşkəsi pozmaqla, həm də Dağlıq Qarabağ və ətraf rayonlarda Suriya ermənilərini yerləşdirməklə ərazilərimizdə ekoloji problemlər yaratmaqla onlar özlərinin təkcə işğalçılıqlarını yox, həm də həyasızlıqlarını bir daha göstərirlər. Biz işğal altında olan ərazilərimizdə ermənilərin, xüsusilə Həkəri və Bərgüşad çayının sahillərində salınmış Çinar meşələrini, qoz, tut, ərik, albalı ağaclarını, eləcə də digər qiymətli ağaclarımızı, meşə sahələrimizi məhv etməklə, bizim və regionun ekologiyasına ciddi zərbələr vururlar. Aparılan araşdırmalar göstərir ki, bu gün erməni vandallarının törətdikləri ekoloji terror Cənubi Qafqazda bir çox fəsadların yaranmasına səbəb olur. Bununla bağlı Azərbaycanın xarici işlər Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə bəyanat imzalayıbdı. Həmin bəyanatda da qətiyyətli şəkildə vurğulanıb ki, beynəlxalq təşkilatlar ermənilərin ekoloji terroruna öz kəskin etirazlarını bildirməklə onları bu əməllərdən daşındırmalıdılar.

**Bəli, bu gün aparılan danışıqlar göstərir ki, ermənilər bizim onlara olan qonşuluq münasibətimizin kəskin düşmənçilik münsibətinə çevrilməsinə özləri rəvac verirlər. Deməli, bu düşmənçilik silahlı qüvvələrimizi döyüş vəziyyətinə gətirməyimizə və hər birimizin də torpaqlarımızın azad edilməsi naminə səfərbər olmağımıza əsas verir. Biz düşmənə yalnız onun layiq olduğu səviyyədə cavab verib torpaqlarımızı azad edəcəyik.**

*Əbülfət MƏDƏTOĞLU*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Dastançı aşıq Pirməmməd haqqında gecikmiş yazı



*Yaqut Bahadurqızı,*
*Filologiya üzrə fəlsəfə doktoru*

**Gənc yaşlarımda rayon qəzetində müxbir işləyirdim. Hər gün səhər işə gedəndə qarşılaşdığım insanlar (əksəriyyəti yaşlı nəsil olardı) mehribanlıqla mənə salam verər, bəzi sosial-məişət problemlərindən şikayətlənər:**

"Ümidimiz sənədir, qəzetdə işıqlandır - deyə xahiş edərdilər. Mən də, nə gizlədim, məmnunluqla:

"Baş üstə - deyərdim.

Hər gün rastlaşdığım insanlardan biri pirani, bəstə boylu, qarayanız, arıq cüssəli, şax duruşlu, mehriban, ağzı dualı Pirməmməd kişi idi. Qapısının ağzında iri çay daşının üstünə balaca nimdər qoyub oturar, demisini çəkər, gəlib-keçənlə ədəb-ərkanla salamlaşar, hal-əhval tutardı. Heç vaxt heç nədən şikayət etməzdi. Məni yaxınlaşan kimi ayağa durar, şirin dillə salamlaşar, o qədər xeyir-dua edərdi ki, özüm də utanardım. Vaxtilə aşıq olduğunu eşitmişdim, ancaq məclislərini görməmişdim. Hiss olunurdu ki, söhbətcil adamdı, danışmaq, dərdləşmək istəyir. Ancaq mənim həmişə tələsə-tələsə gedib-gəlməyim onu bu fikirdən daşındırır. Beləcə qaça-qaça illəri yelə verdim. Fikrimdə tuturdum ki, bir gün ayaq saxlayıb duracağam bu qocanın sinəsindəki, beynindəki xatirələri bir-bir çözəcəyəm, qələmə alacağam... Gəldi o gün, ayaq saxladım, durdum. Pirməmməd kişini danışdırmaq, dinləmək, xatirələri çözmək üçün yox, cənazəsinin arxasınca acı, kədər dolu təəssüf hissi ilə baxmaq üçün.

***

Şirvan aşıqlarının XV-XVIII əsrlər üzrə aşıq Dostu Şirvani, aşıq Saleh, aşıq Rüstəm, aşıq İbad, XIX və XX əsrin birinci yarısı üzrə Baba Rəxşan, aşıq Mürsəl Babaş oğlu, aşıq Soltan, aşıq Qənimət, aşıq Cəlal, aşıq Daşdəmir, aşıq Zeynalabdin, aşıq Bilal, aşıq Şamil, aşıq Abbas, XX əsrin ikinci yarısından sonrakı aşıq Pirməmməd, aşıq Ağalar,aşıq Əhməd, aşıq Şakir, aşıq Qurbanxan, aşıq Pənah, aşıq Bəylər, aşıq Məmmədağa, aşıq Xanmusa, aşıq Şərbət, aşıq Xanış, aşıq Yanvar, aşıq Barat, aşıq Rza, aşıq Mahamud və başqalarının sənət irsi müəyyən qədər öyrənilmişdir və müasir aşıqlarımız üçün örnək, məktəbdir. Bu sənətkarların əldə olunan şeirlərində yaşadıqları dövrün ab-havası, yurdumuzun füsunkar gözəllikləri öz poetik ifadəsini tapa bilmişdir. Şirvan aşıqları söz qoşmaqla bərabər məharaətlə çalıb-oxuyar, məclisi şux rəqsləri ilə riqqətə gətirər, saatlarla dastan, nağıl söyləməklə tamaşaçını, dinləyicini intizarda saxlamağı bacarardılar.

### *Şirvanda aşıq dastana keçməzdən əvvəl*

***gəraylı, qoşma janrında ustadnamə deyir və dastanı peşrovla açır. "Peşrov" fars sözü olub başlanğıc, giriş deməkdir. "Əsli və Kərəm" datanında hadisələr qəmli olduğu üçün "Şirvan şikəstəsi", və ya digər qəmli şikəstə oxunur. Məclisin şux yerində "Şəşəngi" oxunar həmişə. "Şəşəngi" "Şur" üstündə, "Koroğlu" havası isə "Mahur" üstündə oxunar adətən. Sevgi, məhəbbəti tərənnüm edən şeirlər isə "Segah"la qəlbə yatar. Şirvanda dastsançılıq ənənəsi deyilənlərə, yazılanlara görə aşıq İbrahim Əngəxaranlıdan, ondan sonra onun şəyirdi aşıq Bilaldan qalıb. Aşıq Bilalın davamçıları da bu ənənəni yaxşı qoruyub saxlayıblar. Yaxşı cığırdaşların, yaxşı sənətkarların biri də haqqında sözə-söhbətə körpü salacağımız dastançı ustad aşıq Pirməmməd Söhbətovdur.***

Aşıq Pirməmməd 1903-cü ildə Kürdəmirin Ağarzabəyli kəndində rəncbər ailəsində anadan olub. Bu kənd Pirili kəndi ilə Muradxan kəndi arasında cəmi 25 evdən ibarət kənd idi. Kəndin əhalisi müharibə illərində Pirili, Karrar, Xəlsə, Ağsunun Qiyasbəyli kəndlərinə köç edib, yurd-yuva qurublar. Köhnə yurd yerində isə, aşıq Pirməmmədin hər zaman kövrək hislərlə xatırladığı kimi, sönmüş ocaq közləri, göyərmiş daş, divar, bir də qəlb göynədən xatirələr qalıb. Pirməmmədin atası Yusif kişi isə Qiyasbəyli (indi bu kənd Xəlsə adlanır) kəndinə köçüb. Uşalığını qoyun-quzu otarmaqla keçirən Pirməmməd saz-söz sənətinə meyilli olub. Harda aşıq səsi, saz dınqıltısı, balaban naləsi eşidibsə özünü ora verib. Onun bu marağını görən atası Yusif kişi Pirməmmədi aşıq Zəkəriyyəyə şəyird verir.

Zəkəriyyədən söz düşmüşkən, tənqidçi publisist Vaqif Yusifli "Yolun düşsə Şirvana" kitabında Məşədi Zəkəriyyə ilə bağlı yazır: "...Aşıq Zəkəriyyə əsl istedad olub, ona yuxuda vergi verilib. 1863-cü ilin aprel ayında Qaratəpə adlanan yerdə (indi Sığırlı kəndinin 4 kilometrliyindədir), ot tayasının yanında onu yuxu aparıb. Səhər özündə qeyri-adi bir həvəs görüb, bədahətən şeirlər deyib. Zəkəriyyə aşıq adlansa da, əslində şair idi, toyda, məclisdə şeirlər deyər, nağıllar, dastanlar söyləyərdi. Mirzə Bilal onun dastan ustalığını həmişə yüksək qiymətləndirərmiş.

Aşıqlar Sığırlı kəndinə toya gələndə həmişə dastana, nağıla keçməmişdən əvvəl Məşədi Zəkəriyyədən rüsxət alarmışlar.

Elə ki, hansı aşıq dastanın, nağılın qol-qabırğasını qırardı o zaman Zəkəriyyə məclisi tərk edərmiş, ya da etirazını bildirib həmin hissəni olduğu kimi toy əhlinə söyləmiş..."

### *Aşıq Pirməmməd*

***aşıq Zəkəriyyədən nağıl, dastan ustalığın öyrənir. "Tufarqanlı Abbas", "Qurbani", "Şahzadə Əbülfəz", "Şah İsmayıl", "Tahir və Zöhrə", "Novruz və Qəndab", "Əsli və Kərəm", "Ordubadlı Kərim" və s. dastan, nağıllar Pirməmmədin söyləməsində daha maraqlı alınırdı.***

Aşıq Pirməmməd söylədiyi dastanlarda xalq dilinin incəliklərini və gözəlliklərini bütün təravəti ilə dilə gətirdiyi üçün, şipşirin el dilində danışdığı üçün onun nağıl və dastanbazlığı daha çox sevilib, bəyənilib.

Aşıq Əhmədlə Şirvan sənətkarları haqqında söhbətlərimizin birində qocaman sənətkarlardan söz düşəndə aşıq Pirməmməddən söhbət açmışdı: "Cavan oğlan idim. Harada aşıq məclisi olsa dəvətsiz o məclisə gedərdim. Məclisin aşığına qulaq asmaq, görüb-götürmək üçün. Bir dəfə bir məclisdə aşıq Pirməmməd "Əsli-Kərəm" dastanını nəql edirdi. O qədər şirin danışırdı ki, vallah özümü unutmuşdum. Dastanda belə bir yer var ki, Kərəm Əslinin ardınca getmək üçün əvvəlcə atasından sonra anasından razılıq almaq istəyir. Anası Qəmərbanu qəşş eləyib yerə yıxılır. Kərəm anasını ayıldır, gözlərinin yaşını töküb xeyir-dua istəyir. Qəmərbanu ağlaya-ağlaya oğluna xeyir-dua verir. Kərəm anasının əlindən öpüb Sofinin yanına gəlir, görür ki, Sofi atları səfər üçün hazırlayır. Atı minib onunla vidalaşmağa gələn yoldaşları ilə sazı sinəsinə basıb halallaşır:



*De, bu nə sevdadı gəldi başıma?*
*Gəlin halallaşaq, mən gedər oldum.*
*Gəlib, ya gəlməyib, sizi görmərəm,*
*Gəlin halallaşaq, mən gedər oldum.*

*Ürəyimdə vardı sönməz atəşlər,*
*Yar əlindən dərin yaralar işlər.*
*Gülüb danışdığım dostlar, sirdaşlar,*
*Gəlin halallaşaq, mən gedər oldum.*

*Duz-çörək kəsdiyim qohum-qardaşlar,*
*Nədir bu fələyin etdiyi işlər?*
*Gözümdən tökdüyüm qan ilə yaşlar,*
*Gəlin halallaşaq, mən gedər oldum.*

*Seyrağıza sirrinizi verməyin,*
*Keşiş gəlsə, bu yerlərə qoymayın,*
*Əsli gəlsə, Kərəm getdi, söyləyin,*
*Gəlin halallaşaq, mən gedər oldum.*

Ayrılıq məqamını, halallaşmanı o qədər kövrək, titrək səslə təsvir edərdi ki, gözümüzün yaşı sel olardı...

Aşıq Pirməmmədin "Alı xan və Pəri xanım" dastanını söyləməsini də dinləmişəm. Aşıq Pirməmməd məclisi elə ovsunlamışdı ki, şirin danışığı, meydangirliyi, sədəfli sazı məhrəm-məhrəm sinəsinə basması adamı valeh edir, dastana bir az da şirinlik qatırdı. Aşıq məclisinin gözəlliyi ondadır ki, söz-sözü çəkə, hava-havanı gətirə, saz sinənin oduna qızına. Pirəmmədin dastançılığında bu vəhdət, bu şirinlik vardı."

Aşıq Pirməmmədin xoşbəxliyi onda olmuşdu ki, o, sənətkarlar görmüşdü. Aşığa Allah nə qədər istedad bəxş etsə də, ustad görməsə kamil sənətkar ola bilməz. O, aşıq Bilalın, Kalvalı Əli Kərimovun, aşıq Mürsəlin, aşıq Abbasın, aşıq Şamilin məclislərində çox olub, onlardan görüb-götürüb. Ustadlardan görüb-götürdüklərindən isə aşıq Ağalara, aşıq Əhmədə, aşıq Şakirə, aşıq Məmmədağaya , aşıq Teyfura, aşıq Əzizxana, aşıq Əhlimana və digər müasiri olan sənət yoldaşlarına pay çəkib. Şirvan, Aran, Muğan bölgəsində aşıq Şakir, aşıq Əhməd, Bəylər, Eynulla Cəbrayılov, Həsrət, Məmmədağa, Əlbaba, Rəşid, Manaf, İzzətəli və bir çox sənətçilərlə məclislər keçirib, yoldaşlıq edib.

***Aşıq Pirməmməd Şirvan aşıq sənətini, dastanlarımızı, lap elə muğamlarımızı da mükəmməl bilirdi. O, repertuarındakı XVIII-XIX əsr dastan və saz havalarını yerli-yerində xalqa çatdırır, yaşadırdı. Aşıq Pirməmmədin sinədəftərliyi, yerişi, duruşu, məclisi ustalıqla ələ alması, rəvan nitqi, klassik aşıq ənənələrinə bələdçiliyi onun aşıq Bilal ocağından od almasını sübut edirdi. Buna görə də o, nağıl, dastan söyləyərkən ədəbi priyomlardan məharətlə istifadə edə bilirdi, qəhrəmanın, aşiqin əhval-ruhiyyəsini, psixoloji vəziyyətini ustalıqla dinləyicisinə çatdıra bilirdi.***

### *Folklordan, xalqın obrazlı təfəkküründən*

konkret olaraq xalq ifadəsindən istifadəni bu sayaq təzahürü xalq aşığı üçün vacib keyfiyyət idi.

Aşıq Pirməmməd nağıl, dastan söyləyəndə, qoşma, gəraylı oxuyanda həyat, təbiət hadisələrini, kənd lövhələrini, qoyun-mal binələrini, təbiət mənzərələrini, at kişnəltisini, bulaq şırıltısını sanki canlı-canlı görür, səsini eşidirmişlər.

Yastı balabanın müşəyəti ilə söylədiyi ustadnamələr aşıq Pirməmmədi aşiqlik məqamına qovuşdurarmış. Adəti üzrə: - Buyurmaq sizdən, qulluq etmək bizdən, deyib ağsaqqallar cərgəsinə yan alarmış. Bütün klassik dastanlara bələd olan Pirməmməd qürrələnməzdi, ağsaqqalların sifarişini gözləyər, sifarişi alan kimi yanpörtü balabançıya nəzər salıb, ədəblə dövran edər, şirin səslə dastana başlayarmış.

Aşıq Pirməmmədin şeir yaradıcılığı da var ki, indi də Şirvan aşıqları tərəfindən məclislərdə oxunur. Onun şeirləri məzmun, ideya, fikir obrazları baxımından folklordan qidalanıb, klassik aşıq şeiri üslubunda yazılıb. Düzdür, içərisində o dövrün, zamanın tələblərini tərənnüm edən sifarişli şeirlər də var:

**Pirməmməd çalır sazını,**
**Ucaldır şən avazını,**
**Azərbaycan kolxozunu,**
**Salamlayır səhər-səhər.**

**(ardı növbəti sayımızda)**

## "Allah Azərbaycan xalqını müğənnilərə möhtac etməsin"

### Tolik od püskürdü



*"Karantin bütün dünyada var. Siz indi deyirsiniz, Şəbnəm Tovuzlu açıqlamasında söyləyib ki, yığdıqlarımızı paylaşmışıq, indi heç nəyimiz yoxdur, toylara icazə verilsin. Bilirsiniz, Şəbnəm olmasın, olsun, Bülent Ersoy, Seda Sayan və digərləri, bunlar dövlət üçün önəmli deyillər. Ona görə onların danışığı da maraqlı deyil. Dövlət bu gün 10 milyonluq Azərbaycan xalqını düşünür. Fərdi olaraq nə Şəbnəm Tovuzlunu, nə də başqasını fikirləşmir ki, gedib toya, pul qazansınlar, sonra da gəlib 1000 manat xalqa pul xərcləsinlər, həmin 1000 manatı da xalqın başına vursunlar".*

*Bu sözləri Adalet.az saytına açıqlamasında prodüsser Tarix Əliyev söyləyib:*

*"Kasıblara Şəbnəmdən 1000 dəfə çox paylayan müğənnilər var və tanınmayan insanlar var. Pandemiya dövründə həmin o məşhur olmayan insanların puluna mən kasıblar üçün 2 ev almışam. Elə həmin evlərin qiyməti 40 min manatdan çoxdur. "Bravo" marketindən 20 min manata yaxın alver edib kasıblara paylamışam. Yəni müğənnilər 1000 manatlıq yardım paylayıb 10 dənə səhifədə göstəriblərsə, camaat mənə zəng vurub deyib ki, adımız olmasın, sən get, çək, göstər. Müğənnilər düşünməsin ki, kasıblara yalnız onlar kömək elədi. Adının açıqlanmasını istəməyən şəxslər də elədi. Bir çox insanlar oldu ki, yardım etdilər. Moskvada 100 min evroya toya gedən müğənnilər var. Nikolay Baskov, Flipp Kirkorov kimi insanlar 100 min euroya gedirlər. Onlar çıxıb bir dəfə demədilər ki, toylar yoxdur. Bizim müğənnilərin 90 faizi, bilirsiniz, niyə bu gündədir? Çünki onlar konsert haqqında düşünmürlər. Bir müğənni söyləmədi ki, hər yer açılaydı və gözəl konsert verərdik. Onların düşüncəsi yalnız toydan ibarətdir. Fikirləşirlər ki, toy olmasa, sənət yoxdur. Bizim sənətkarlarımız var ki, illərlə toya getməyiblər. Bunu özlərinə ar biliblər ki, desinlər, toy yoxdur. Baxın, Xalq artisti Arif Babayev deyər, mən toylara gedirəm? Yaxud da Xalq artisti Mənsum İbrahimov? Flora xanım, Röya Ayxan, Aygün Kazımova, Miryusif deyərmi, bu sözləri? Halbuki, onlar ən bahalı toylara gedən ifaçılardır. Nuri Sərinləndirici, Elton Hüseynəliyev söyləyərmi, toylar açılsın?*

*Biz başa düşürük, müğənnilər toydan qazanır, amma bu, onların öz günahıdır. Bu gün müğənnilərimizin 50 faizinin düşüncəsi toydur, 50 faizinin düşüncəsi isə "instagram"da yemək, dərman, paltar paylaşmaqan ibarətdir. Birinə 50-100 manatlıq ayaqqabı göndərirlər, 1 milyonluq səhifəsində paylaşır.*

*Bu il mən bir müğənni görmədim, yenicə məktəbə getmiş imkansız ailələrin övladlarına yardım etsin. Bilirsiniz, niyə? Çünki məktəbli mağazaları onlara reklam təklif etmədilər. Əvvəllər havayı alıb aparıb kiməsə verirdilər, amma bu il olmadı. Çünki pandemiyaya görə həmin mağazalar onlarla əməkdaşlıq etmədi. Mən bir şey arzulayıram, Allah Azərbaycan xalqını müğənnilərə möhtac etməsin. Heç bir ailənin başçısı müğənniyə yalvarmasın ki, gəl, mənim övladıma dəstək ol. Mən bu gün arzu edirəm ki, müğənnilərdən öncə rayonda maldarlıq və əkinçiliklə məşğul olan insanları düşünüb deyirəm, toylara icazə verilsin. İcazə verilsin ki, onların da məhsullarını alan olsun. Mən birinci növbədə toyxanada işləyən qabyuyanlar, mühafizəçilər və başqalarını fikirləşirəm. Müğənnilər mənim düşündüyüm ən sonuncu kateqoriyadır".*

*Rövşən Tahir*

# "Psixoloji problemlərim oldu"

## Vəfa Şəbnəm ilə davasından danışdı

**"Müğənnilik sənətini sevirəm. Bu gün bütün müğənnilər toy arzulayır. Pula görə deyil. Bax mənim yoldaşım məni pulla təmin edir, evdə də otura bilərəm, heç toya da getmərəm. Amma toyda aldığım o ləzzəti, insanların sevgisini heç bir pul əvəz edə bilməz". "Ədalət" qəzetinin qonağı müğənni Vəfa Şərifovadır.**

**-Vəfa xanım, gündəmdə necə qalırsınız?**

-Gündəmdə mahnılarımla qalıram. Efirlərə az çıxıram, müsahibələrim az olur, açığı çox yerə getmirəm. Jurnalistlər dəvət edirlər, çox sağ olsunlar, amma hər yerə getmirəm, həmişə getmirəm. Əsasən mahnılarım və kliplərimlə gündəmdə qalıram. Bu Allahın mənə verdiyi ən gözəl nemətdir. Hər kəs tanına bilər. Amma sevilmək hər kəsə qismət olmur. Çox şükür ki, mən insanlar tərəfindən sevilirəm. Dəyər verən bütün tamaşaçılara təşəkkür edirəm.

**-Qalmaqala meyilli insansınız?**

-Xeyr, təbiətcə davakar biri deyiləm. Qalmaqaldan, söz-söhbətdən, davadan uzaq qaçan insanam. İstər həyatda olsun, istər işimdə.

*“Yanımda toya apara biləcəyim insanla ailə qurmazdım”*

**-Amma qalmaqallar sizdən yan keçmir...**

-Təəssüf ki. Söz atanlar çox olur, adımı çəkib danışanlar belə olur, amma mən heç birinə cavab verməmişəm bu günə qədər. Bir dəfə olub, onu da hamı bilir. Artıq söhbət bağlanıb, hər şey yaxşıdır. Yəni mən tərəfdən münasibət hər kəsə yaxşıdır, qarşı tərəflərdən necədir, onu bilmirəm.

**-Qarşı tərəf deyərkən Şəbnəm xanım Tovuzlunu nəzərdə tutursunuz?**

-Şəbnəm xanımla barışmışıq. Bunu hər kəs bilir. Lakin başqa insanlar da var ki, yolumu kəsirlər, söz atırlar. Mənim bir ziyanım dəyməməsinə baxmayaraq düşmənçilik edirlər. Səbəbini bilmirəm, amma edirlər.

**-Bu gün bəziləri sizin ifanızı bayağı adlandırır. Nədən qaynaqlanır bu?**

-Eşitməmişəm, mənim ifama bayağı desinlər. Rəhman Əliyevlə, Elvin Musayevlə işləyirəm. Aranjimanlarım səviyyəli şəkildə olur. Mənim çalışdığım insanlar savadlı insanlardır. Mahnı seçimim insanlara daha yaxındır. Bəstəkar mahnıları hazırda oxumuram. Əvvəllər oxumuşam, onun üçün mənim illərim gedib. Bəstəkar mahnılarına neçə ilimi sərf etmişəm. Bütün klassikanı bilirəm. Amma insanlar başqa cür mahnılar istəyirlər. Bu biznesdir. İnsanlar bunu istəyirsə, bunu da satmalısan. Mən özüm üçün oxumuram axı. Mənə xalqın sevgisi lazımdır. Xalq bunu sevirsə, mən də oxumalıyam.

**-Mahnılarınızı mən də dinləyirəm. Amma bəlli bir insanlar ifalarınıza bayağı damğası vururlar.**  **Bəlkə, irəlidəsiniz, ona görə belə edirlər?**

-Mənim yaşımda bu janrda mənim qədər tanınan yoxdur. Digər tanınanlar məndən yaşca böyükdürlər. Mənim yaşımda tək mənəm ki, bu cür ifa edirəm. Yaşıdlarımdan bu qədər sevilən sənətçi də tək mənəm. Həmişə irəli gedən insanlara hansısa bir sözləri deyirlər. Ya bayağı deyəcəklər, ya da başqa-başqa ifadələr ki, onları dilimə alıb səsləndirmək istəmirəm.

**-Həyat yoldaşınız sizi qısqanır? Yəqin ki, evə gec gələndə bu hallar özünü göstərir...**

-Qısqanmağı normaldır. Ümumiyyətlə, mən evə gec gəlmirəm, işim bitən kimi evdə oluram. Deyim ki, dostlarla gedim, oturum, yaxud gəzim, bu xarakterdə insan deyiləm. Evimə bağlı biriyəm.

Odur ki, bu cəhətdən söz-söhbətlərimiz az olur.

**-Bəzi xanım ifaçılar da var ki, toylarda həyat yoldaşları yanlarında olur. Sizdə necə?**

-Heç vaxt olmur. Yanımda toya apara biləcəyim insanla ailə qurmazdım.

*“Bu günə qədər aldanmayan xanımam”*

**-Sevgi dolu mahnılar oxuyursunuz? Ünvanlandığı şəxs həyat yoldaşınızdır, ya ünvansızdır?**

-Ona ünvanladığım mahnım da var. Amma əsasən kütlə üçün oxuyuram, insanlarda əsas problem nədirsə, ondan oxuyuram. Məsələn, payız aylarında ayrılıqlar çox olur, bax o zaman ayrılıqdan oxuyuram. Yazda sevgidən ifa edirəm.

**-Ana olmaq hissi... Ana olmaq nəyi dəyişdi?**

-Mən həmişə digər insanlara qayğı göstərən biri olmuşam. Elə bilmişəm ki, bacı-qardaşımın məsuliyyəti mənim üzərimdədir. Əslində deyim ki, həyatımda dəhşətli dərəcədə nəsə dəyişmədi. Çünki analığı əvvəldən hiss edirdim. Düşünürdüm, ana olandan sonra heç nə dəyişməyəcək, necə var, həyatım elə də olacaq. Amma müəyyən şeylər var ki, dəyişilir. Doğrudan da, insan o qədər uşağa qarşı həssas olur ki. Bir balaca harasısa ağrıyanda canın sızıldayır. Bunu yaşadım və gördüm. Bu yaxınlarda bir az xəstələndi və mən sözlə ifadə olunmayacaq hisslər yaşadım.

**-Müsahibələrinizdən birində demisiniz ki, ana olmağa hazırlaşarkən streslərim çox oldu. Bunlar Şəbnəm xanımla aranızda yaşananlar idi?**

-Problemlərim çox oldu. İşlə bağlı problemlərim oldu, elə o dava da. Ümumiyyətlə, hamiləlik zamanı yaşanan dava, söz-söhbət insanın yaddaşından silinmir.

Mən həmişə pis şeyləri unudan insan olmuşam. Uşaqlığımda belə ola bilər ki, mənə qarşı kimsə pis davranıb, yaxud gəncliyimdə, onları unutmuşam.

Amma nədəndir, bilmirəm, hamiləlikdə kimlə söz-söhbətim olubsa, unuda bilmirəm. Yaddaşımdan silinmir. O davalara görə psixoloji problemlərim də oldu. Şükür Allaha, indi yaxşıyam.

**-Həm də biznes leydisiniz. Müğənni olmaq, ya biznes leydi?**

-Müğənni, təbii ki. Müğənnilik sənətini sevirəm. Bu gün bütün müğənnilər toy arzulayır. Pula görə deyil.

Bax mənim yoldaşım məni pulla təmin edir, evdə də otura bilərəm, heç toya da getmərəm. Amma toyda aldığım o ləzzəti, insanların sevgisini heç bir pul əvəz edə bilməz. Karantin bitsin, Allahın izni ilə toylarımız olsun.

**-Hər bir müğənninin toy qiyməti var. Açıqlamaq istəyərsiniz məbləği?**

-Onu açıqlamaq istəmirəm. Nömrəmiz var. Hər kəs zəng vurub öyrənə bilər.

**-Heç olub ki, imkansız bir insan üçün pulsuz toy aparasınız?**

-Belə zənglə olmayıb. Çünki çox vaxt istifadə edirlər. Amma bacım deyib ki, filankəs imkansızdır, səni çox istəyirlər, gedə bilərsənmi? Demişəm, baş üstə. Yaxud hansısa tanıdığım bir insan deyirsə ki, get, gedirəm.

**-"Ailə qurmaq istəmirəm" söyləmisiniz. Səbəb nə idi?**

-Açığı özümü ailəyə hazırlıqlı hiss etmirdim. Düşünürdüm ki, hələ zamanım var. Ancaq oxuyaram və kariyera quraram. Fikirləşirdim ki, birdən ailə quraram və sənətdən uzaqlaşaram. Buna görə ailəni istəmirdim. Açığı kişilərə güvənim də yox idi. Xanımların çoxu həyatda aldanır. Mən bu günə qədər aldanmayan xanımam. Barmaqla sayıla biləcək xanımlar var ki, bir bəy tərəfindən aldanmıyıb. Onlardan biri də mənəm. Bir dəfə seçim elədim və düzgün seçim elədim. Çox şükür Allaha ki, qarşıma yaxşı insan çıxardı.

**-Yoldaşınızın sizə qadağaları varmı?**

-Çoxdur. Məsələn, heç bir sənətçi ilə dostluq edə bilmərəm, gedib otura bilmərəm. Açıq-saçıq özüm də geyinmərəm, amma o da qoymur. Çoxdur, saydıqca bitməz.

**-Bəs sizin qadağalarınız varmı?**

-Məndə də çoxdur. O, əməl edirmi? Bax orası müəmmalıdır. Amma elə şeylər var ki, mən də qəbul etmərəm.

**-Sizə xəyanət etsə, bağışlayarsınız?**

-Xəyanət kişilərdə iki cür olur, qadınlarda isə bir. Kiməsə könül bağlayarsa, kiməsə vurularsa, mən unudularamsa, ikinci plana atılaramsa, heç vaxt bağışlamaram. Bunu qadınlığıma sığışdıra bilmərəm.

**-Özünüzə rəqib kimi görürsünüz?**

-Mən öz yolumla gedirəm. Kimisə özümə rəqib görmürəm. Onsuz hərəkətlərimdən izləyicilər görürlər. Öz yolumla gedib kimisə təkrarlamıram.

**-Çox sağ olun ki, dəyərli vaxtınızı ayırdınız.**

-Siz sağ olun.

**Rövşən Tahir**

## Şou-biznesdə ayrılıqlar, boşanmalar: Üç uşaqlı anaların növbəti toy şənliyi...



**Ötən həftə həm Azərbaycan, həm də xarici şou-biznes aləmi ayrılıqlar, boşanmalar və yeni evliliklərlə çalxalandı.**

Adalet.az xəbər verir ki. həftəyə damğasını Azərbaycan şou-biznesinin nümayəndəsi müğənni Damla ikinci dəfə sürpriz şəkildə ailə həyatı qurub.

**Soruşsanız ki, Damlanı kim aldı, deyərik ki, sənətçi prodüseri Şamillə nikaha daxil olub. Daha sonra cütlük İstanbula bal ayına yollanıblar.**

İfaçı və Şamilin sosial mediada eyni gün etdikləri paylaşım da diqqət çəkib. Həyat yoldaşı ilə fotosunu paylaşan Damla şəkilə ”dəyərli insan” rəyini yazıb, Şamil isə fotonu şərhsiz buraxıb.

**Ötən həftə hamının sosial şəbəkələrdə maraqla izlədiyi məşhur türkiyəli cütlük Biran Damla Yılmaz və İlker Kalelinin eşq macərası sona çatıb.** Aktyor İlker Kaleli özündən 13 yaş kiçik sevgilisi, aktrisa Biran Damla Yılmazla bir neçə ay əvvəl sevgili olduğunu açıqlamışdı.Bunlarda niyə ayrılsa yaxşıdır??? Həə, Biran Damla İlkerlə baxış bucaqlarının fərqli olduğunu açıqlayaraq, ayrıldıqlarını təsdiqləyib.

**”Beni Böyle Sev” serialında Kərəm Güney rolu ilə tanınan Türkiyəli aktyor Atılqan Gümüş 16 illik həyat yoldaşı Verda Gümüşdən boşanıb.**

Cütlüyün boşanması haqqında qərarİstanbul Ailə Məhkəməsində verilib. Cütlük boşanarkən qarşılıqlı razılaşmaya imza atıb. Anlaşmaya əsasən, cütlüyün 15 yaşlı övladı anası ilə qalacaq, aktyor bunun üçün 4 500 lirə (təxminən 1000 AZN - red.) aliment ödəyəcək.Məhkəmə prosesi 15 dəqiqə davam edib. Cütlüyün boşanma səbəbi açıqlanmayıb.

**Ukraynalı müğənni Anna Sedokova siyahısını genişləndirmək fikrindədir.** O da ötən həftə növbəti dəfə ailə həyatı qurub. Bu barədə müğənni özü sosial media hesabında açıqlama verib. Anna bildirib ki,latviyalı basketbolçu Yannis Tim ilə gizlicə nikaha girib. Hətta müğənninin valideynləri belə onun ailə qurmasını sonradan öyrəniblər. Pah atonna, guya valideynləri bilsəymiş nə olacaqmış, qızlarının üçüncü dəfə ailə həyatı qurmasına etirazmı edəcəklər? Yeri gəlmişkən, üç uşaq anası olan Annanın 37, yeni seçiminin isə 27 yaşı var.

Ukraynalı müğənni Anna Sedakova üç dəfə ailə qursun, **Rusiyalı model Natalya Vodyanova qalsın?** Heç elə iş olar? Natalya da fransız iş adamı, planetin varlı ailələrindən birinin nümayəndəsi Antuan Arno ilə ailə həyatı qurub. Haqq üçün deyək ki, Vodyanovanın birinci həyat yoldaşı britaniyalı aristokrat Castin Trevor Berkli Portman olub. Onların bu nikahdan üç övladı dünyaya gəlib. Bəli, heç nə gec deyil.

**Evlənənlərin, boşananların bu vurhavur vaxtında ifaçı Dilarə Kazımova kefimizi pozur.** Soruşun niyə? Deməli ARB TV-nin ”Ayaqüstü” rubrikasının qonağı olan ifaçı Dilarə Kazımova aparıcının suallarına maraqlı cavablar verib, verib. Qəflətən aparıcı ona ərə getməklə bağlı planı olub-olmadığını soruşub. Dilarə də cavab verib ki, pandemiyadan sonra həyatı daha çox sevməyə başlayıb. Əgər qarşısına sevəcəyi bir insan çıxsa əlbəttə ki, dünyaya övlad gətirmək istəyər.

Baxıram, Dilarə Kazımovanın ağbirçək öyüdünə ehtiyacı var: A qızım, əvvəlcə ər tap, ərə get, sonra dünyaya uşaq gətirmək xəyalına düş də .O məşhur filmdə deyildiyiyi kimi: Ehhh, sən də ay Dilarə bajı

**Xəbərin ən maraqlısını bizdən oxuyun əziz oxucular!**

**Əntiqə**

## Hicablı gəlin namizədin açıq-saçıq fotoları: Ailəsi dağıldı...



*Türkiyədə bir televiziyada qatıldığı evlilik proqramı ilə tanınan, təxminən 4-5 il evlilik proqramlarından düşməyən "hicablı-inanclı" Hənifə Gürdal adlı bir qız nəinki Türkiyədə eləcə də ölkə hüdudlarından kənarda da məşhurlaşdı və sosial şəbəkədə diqqət mərkəzinə düşdü. Nəhayət Hənifə bu ilin yanvar ayında Kamal Ayvaz adlı fotoqrafçı gənclə ailə qurdu və şok olaya imza atdı. Beləki, telekanallarda olduğu müddətdə hicabda olan Hənifə nişanlandığı gündən sonra isə hicabdan imtina etdi və hətta açıq-saçıq geyimləri ilə hər kəsi arxasınca danışmağa məcbur qoydu. Yeri gəlmişkən, fenomen olmuş Hənifə verilişdə iştirakı zamanı ona hər ay 2-3 min TL pul verildiyini iddia edərkən də bir müddət gündəmi zəbt edə bildi. Hənifə Kanal D-də yayımlanan "Mügə və Gülşənlə 2-ci səhifə" proqramında qonaq oldu. Burada evlilik proqramında aylıq nə qədər qazandığını açıqladı. Onun sözlərinə görə, verilişdə iştirakı zamanı onun üçün ev tutulub və aylıq 2-3 min TL pul verilib. Evlilik proqramını tərk etdikdən sonra Hənifə bir müddət benzindoldurma stansiyasında nasos işçisi olaraq işə başlayıb. O proqramda pərdəarxası yaşananlardan da danışıb. Bildirib ki, ev əşyalarına və cehizə görə evlənib boşananlar da olub.*

*Qayıdaq hicabdan imtina edən Hənifənin açıq-saçıq geyimlərinə. Hənifə tətil günlərində etirazlara baxmayaraq, İnstaqram hesabında çimərlik geyimində çəkdirdiyi fotolarını paylaşdı. O, fotonun üzərinə "Tənha olanda etdiklərinizi ictimaiyyət qarşısında qınaq məsələsinə çevirməyin", qeydini yazdı. Etirazlardan sonra növbəti açıq-saçıq fotosunu paylaşan Hənifə bunları qeyd etdi: "Yaxşı-yaxşı yaxınlaşdırıb baxın, bikini geyindim və bu rəzilliyim bəs etmədi, üstəlik poza da verdim. Baxın görüm, ayıb yerimi görə biləcəksinizmi?"*

*Uzun sözün qısası, Hənifədən yeni xəbər var.*

*Adalet xəbər verir ki, evliliyindən 9 ay sonra Hənifə rəsmi olaraq boşanıb. Boşanma səbəblərini açıqlamayan Hənifə üçün izləyiciləri:"Bu evlilik deyil, bir reklam" deyiblər.*

*Qeyd edək ki, Hənifə Gürdal ötən günlərdə sosial şəbəkələrdə "Ərimlə vaxt keçirmək istəmirəm" sözləri ilə gündəmə gəlmişdi.*

*Əntiqə Rəşid*

# “Özümə heç kimi rəqib görmürəm”

***"Bu alətin görkəmi, səsi mənə həmişə maraqlı olub. Amma dediyim kimi, ailəm məni piano ifaçısı kimi görmək istəyirdi. Yaşım artdıqca istedadımın klarnetdə daha çox olduğunu hiss etdim. İstəyimin dalınca getdim. Düzdür, getdiyim yolda çətinliklərlə də qarşılaşdım, amma geri dönmədim və dönmək fikrim də yoxdur". "Ədalət" qəzetinin qonağı klarnet ifaçısı Nərgiz Eminovadır.***

*"Qabiliyyət imtahanından azad edilmişəm"*

**-Bildiyim qədərilə ölkəmizdə yeganə qadın klarnet ifaçısınız. Varmı məsuliyyət?**

-Bəli, təbii ki, var. Ötən illərə nəzər salsaq, hazırda məsuliyyətin daha çox olduğunu da deyə bilərəm hətta. Zaman keçdikcə, tanındıqca məsuliyyət artır. Ölkəmizdə bu sənətə olan maraq mənə çox həvəs verir. Qısa zaman kəsiyində çox insanın diqqətində olmuşam. Təbii ki, bu hal məsuliyyət hissi yaradır. Ümumiyyətlə, bu sənət fədakarlıq tələb edir. Allahın izni ilə sənətin yüksək zirvəsinə də çatacaram.

**-Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasına imtahansız qəbul olmusunuz...**

-Bəli, imtahansız qəbul olmuşam. İlk olaraq onu deyim ki, Bülbül adına orta ixtisas məktəbini bitirmişəm. Kiçik yaşlarımda piano üzrə təhsil almışam. Lakin buna baxmayaraq həvəsim klarnetə idi. Klarnetə olan həvəsimi boğa bilmədim və istəyimin ardınca getdim. Məktəbimizin direktoru Xalq artisti Teymur Göyçayevə yaxınlaşıb klarneti sevdiyimi dedim. Çox sağ olsun, mənə kömək etdi. Əvvəlcə fakültətiv klarnet ixtisası üzrə təhsil aldım. 6 ay sonra imtahan verdim və Teymur müəllim məni bəyəndi. Artıq 10-cu sinifdə oxuyanda ixtisasım klarnet idi. Daha sonra Teymur Müəllim məni orkestrinə dəvət elədi. İmtahansız qəbul olmağıma qalanda isə test imtahanlarını vermişəm, yalnız qabiliyyət imtahanından azad edilmişəm. Musiqi Akademiyasına daxil olub 2019-cu ildə buranı qırmızı diplomla bitirdim.

*"Yeni bir tarix yazmaq istəyirəm"*

**-Deməli, sevginiz sizi klarnetə yönləndirdi...**

-Təbii ki. Bu alətin görkəmi, səsi mənə həmişə maraqlı olub. Amma dediyim kimi, ailəm məni piano ifaçısı kimi görmək istəyirdi. Yaşım artdıqca istedadımın klarnetdə daha çox olduğunu hiss etdim. İstəyimin dalınca getdim. Düzdür, getdiyim yolda çətinliklərlə də qarşılaşdım, amma geri dönmədim və dönmək fikrim də yoxdur. Mənə çox sual verilir ki, bu sənətdən uzaqlaşarsanmı? Mən isə həmişə deyirəm ki, mümkün deyil. Bu sənətdən kənarda özümü təsəvvür edə bilmirəm.

**-Daha çox Azərbaycan, yoxsa dünya əsərlərini ifa edirsiniz?**

-Həm Azərbyacan, həm də dünya əsərlərini ifa edirəm. Repertuarım həm fərqlidir, həm zəngindir. Bu iki amilə-zənginlik və fərqliliyə daha çox üstünlük verirəm. Onu da deyim ki, dünya və Azərbaycan musiqilərinin sintezini də edirəm.

**-"Tarixin yaddaşında yaşamaq istəyirəm"...**

-Bu cümlə mənə tanışdır. Keçən müsahibəmdə söyləmişdim. Hətta başlıq da bu cümlə idi. Hədəflər içərisində ən gözəli budur. Daha böyük hədəf düşünmürəm. Tarixin yaddaşında yaşayıb yeni bir tarix yazmaq istəyirəm.



**-Müəllimlərinizdən söhbət açaq. Özünüzü kimlərə borclu sayırsınız?**

-Bülbül adına orta ixtisas məktəbində klarnet müəllimim Anar Məmmədov olub. Mənə klassikanı, klarneti dərinliklərinə qədər o öyrədib. Bu gün klarneti peşəkar ifa edə bilirəmsə, ona borcluyam. Üzərimdə əziyyəti çox olub. Musiqi Akademiyasında da müəllimim o olub.

*"Pandemiya musiqiçilər üçün çətinlik yaratdı"*

**-Musiqiçilər arasında tez-tez intriqalar baş verir. Sizdə necə?**

-Suala belə cavab verim, hazırda klarnet ifaçıları arasında özümə heç kimi rəqib görmürəm. Ümumi musiqiçilərə qalanda isə orada da eyni vəziyyətdir. Kimsəni özümə rəqib bilmirəm. Əksinə onlardan öyrənirəm.

**-Hazırda dolanışığınız necədir?**

-İnsan hər gününə şükür etməlidir. Ən azından yeməyə çörəyimiz var, nəfəsimiz gedib-gəlir, canımız sağdır, Allaha çox şükürlər olsun. Allah tezliklə pandemiya bəlasını dünyanın üzərindən qaldırsın. Pandemiya bütün musiqiçilər üçün çətinlik yaratdı. Düzdür, mənim valideynlərim dəstək olur, bir o qədər də çətinlik yaşamıram. Sadəcə toylar olmadığına görə qazancımız da yoxdur.

*"Müğənniləri dinləməyə üstünlük vermirəm"*

**-Flora xanım Kərimova, Zeynəb xanım Xanlarova, İlhamə xanım Quliyeva... Bu müğənnilərdən hansısa qulaq asmaq sizə xoşdur?**

-Hər üçünün gözəl əsərləri var. Allah İlhamə xanıma rəhmət eləsin. Flora xanım və Zeynəb xanıma isə can sağlığı arzulayıram.

Düzünü desəm, Zeynəb xanım Xanlarovaya daha çox qulaq asıram. O xanımın repertuarı daha zəngindir. Ona qulaq asıb bəhrələndiyim mahnılar da olub.

Bir neçə mahnısını klarnetdə də ifa etmişəm.

**-Bəs cavan müğənnilərdən kimləri dinləyirsiniz?**

-Cavan müğənnilərə qalanda isə deyim, mən müğənniləri dinləməyə bir o qədər də üstünlük vermirəm. Bəlkə də, insturmental ifaçılıqda olduğumdan irəli gəlir ki, daha çox bu yöndə olan mahnıları dinləyirəm.

**-Röya Ayxan, Damla, Səidə Sultan, Natavan Həbibini də dinləmirsiniz?**

-Adlarını çəkdiyiniz müğənnilər arasında daha çox Röyanı dinləmişəm. Digərlərinə də hardasa, ya toy məclisində, ya başqa yerdə qulaq asmışam, amma ən çox Röyanı dinləmişəm. Mahnıya qulaq asmaq insanın əhvalına bağlı olan bir haldır. Bəzən elə anlar olur ki, insan nəinki mahnı, heç səs belə eşitmək istəmir. Bəzən də elə olur ki, sevmədiyin bir müğənninin musiqisini dinləyirsən, sənə xoş gəlir.

*"Arzular bitib-tükənməzdir"*

**-Karantindir, toylara getmirsiniz. Yəqin ki, çoxdandır, klarnetdə ifa etmirsiniz. Sonuncu dəfə hansı musiqini səsləndirmisiniz?**

-Klarnetdə ifa etməyimin toylara heç bir aidiyyatı yoxdur. Məşqlər edirəm, üzərimdə çalışıram. Əslində karantin bir fürsətdir ki, nələrisə ortaya çıxarasan, araşdırıb öyrənəsən. Əvvəllər toylara görə nələrisə araşdıra bilmirdik, vaxtımız olmurdu. Amma indi fürsətdir. Evdə oturub məşqlərimi edirəm. Sözüm ondadır ki, klarnetdə ifa etməyimin toylarla heç bir bağlılığı yoxdur.

**-Hansı arzunuzun həyata keçməsini istəyirsiniz?**

-Arzular bitib-tükənməzdir. İnsan yaşadığı müddətdə bir şeyi istəyir, əldə edir, sonra başqa bir şey istəyir. Dediyim kimi, bitib-tükənmir. Mənim də hər kəs kimi özümə məxsus istəklərim, arzularım, qarşıma qoyduğum məqsədlərim var.

Bu müsahibədə onu qeyd etmək istəyərdim ki, ən böyük arzum sənətimdə çox irəlidə olmaqdır. Yurdumuz çox gözəl sənətkarlar yetişdirib, Üzeyir Hacıbəyov, Qara Qarayev, Müslüm Maqomayev və digərləri kimi. Biz, musiqiçilər də bu sənətkarlardan bəhrələnirik. Arzum budur ki, gələcəkdə adım gözəl sənətkarlarla bir sırada çəkilsin.

**Rövşən Tahir**


Mahmudov Şahin Turan oğlunun adına verilmiş Bakı şəhər, Xətai rayonu, Cavanşir küçəsi 21a, mənzil 517-518 saylı ünvanın Orderi itdiyi üçün etibarsız sayılır.

***

”Promo Plus” MMC nizamnamə kapitalının azaldığını elan edir. Kreditorlar tələblərini info@promoplus.az elektron ünvanına və ya Abşeron rayon, Xırdalan şəhəri, H.Əliyev prs. 30, bina 12, mənzil 59 ünvanına göndərə bilərlər.

***

Samux rayon Bağmanlar qəsəbə sakini Əliyev Sahib Eyyub oğlunun adına verilmiş JN-56 kod: 50702038 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Samux rayon Bağmanlar qəsəbə sakini Əliyeva Mübübət Eyyub qızının adına verilmiş JN-57 kod: 50702038 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.



**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 22**
Çapa imzalanmışdır: 21.09.2020